YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
19 aprel 2025-ci il, şənbə
№ 065 (6893)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!



# Prezident və birinci xanım "Sea Breeze"də...

Bax səh. 2

# Dünyaya nümunə

Bax səh. 2



## Moskvanın Zəngəzur dəhlizi planı

Bax səh. 4

## Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanı kimi...

Bax səh. 3



## Xarici diplomatlar Xankəndi və Şuşada...

Bax səh. 3

## Azərbaycan və Sloveniya yeni anlaşmalar əldə edib

Azərbaycan və Sloveniya arasında siyasi və iqtisadi əlaqələr son illərdə dayanmadan inkişaf edərək etibarlı dostluq səviyyəsinə yüksəlib. Münasibətlərdə yaranmış yeni istiqamətlər tərəflərin bir sıra layihələrdə birgə addımlar atmasını meydana çıxarıb. Xüsusilə də regionda baş verən yeni geosiyasi amillər, Balkan ölkələrinin Azərbaycanla iqtisadi təmaslarında intensivliyin artması Sloveniya ilə də iqtisadi-ticari və tranzit əlaqələrinin genişləndirilməsini meydana çıxarır.

**SOCAR Sloveniyanı qazla təmin edir**

Azərbaycanın regionda dinamik inkişaf gücünü və enerji-nəqliyyat potensialını nəzərə alan Sloveniya ölkəmizlə bu sahələrdə yaxın əməkdaşlıq əlaqələri qurmaq niyyətindədir. İki ölkə arasında son bir il ərzində enerji sahəsində səmərəli əlaqələr qurulub, 2024-cü ilin iyulunda Sloveniyanın ətraf mühit, iqlim və energetika naziri Bojan Kumerin ölkəmizə səfəri zamanı "Geoplin" şirkəti ilə SOCAR arasında təbii qaz tədarükü sahəsində əməkdaşlıq haqqında Memorandum imzalanıb. Həmin razılaşmaya uyğun olaraq, SOCAR 2024-cü il avqustun 1-dən Sloveniyaya qaz tədarükünə başlayıb.

2025-ci il aprelin 4-də...

Bax səh. 5

## Manatın məzənnəsi sabit saxlanılacaq

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlara əsasən, 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində, yəni 1,70 AZN intervalında götürülüb.

Manatın məzənnəsini ölkəyə daxil olan valyutanın həcmi, Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləği və digər amillər müəyyən edir. Hazırda ölkəmizə daxil olan xarici valyutanın həcmini təmin edən dayanıqlı resurslar mövcuddur. Məzənnəyə təsir göstərən amillərdən biri kimi dünya bazarında neftin orta satış qiyməti də mühüm rol oynayır. Sözsüz ki, yüksək neft qiymətləri ölkəyə daha çox xarici valyuta axınını təşviq etməklə, manatın möhkəmlənməsinə səbəb olur.

**Neft Fondu dollar tələbini tam qarşılayır**

Ölkəmizdə valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir ki, bu da manat-dollar münasibətlərinin tənzimlənməsində təsiredici faktorlardan biridir. Neft Fondu illik neft -qaz satışlarından orta hesabla 12-14 milyard manatlıq transferti həyata keçirmək imkanına malikdir. Neft Fondu neft və qaz satışından əldə etdiyi gəlirləri valyuta...

Bax səh. 5

## Bölgədə iqtisadi inkişafa və turizmə açılan yol

"Azərbaycan Dəmir Yolları" (ADY) QSC Ağdam-Xankəndi dəmir yolu xəttinin layihələndirmə işlərinə başlayıb. Layihə tamamlandıqdan sonra cari ilin qarşıdakı aylarında dəmir yolunun tikinti işlərinə başlanılması nəzərdə tutulur. Artq bununla bağlı podratçı şirkət seçilib və mobilizasiya işləri davam etdirilir. ADY sədrinin müşaviri Tural Abbaslı "Nəqliyyat infrastrukturunun inkişafına dair sual və təkliflərin müzakirəsi" mövzusunda keçirilən "Milli Biznesin İnkişafı Forumunda bildirib ki, Ağdamdan Xankəndiyə qədər uzanan dəmir yolunun uzunluğu 27-28 kilometrdir.

Tural Abbaslı əlavə edib ki, Ağdam avtovağzal və dəmir yolu kompleksinin tikintisi tamamlanma mərhələsindədir: "İşlərin növbəti ayın əvvəllərinə tam olaraq bitməsi nəzərdə tutulub. Bu, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ilə birgə çalışdığımız layihədir. Burada şəhərlərarası, rayonlararası marşrutlar və dəmir yolu stansiyası fəaliyyət göstərəcək.

**Ulu Öndərin əsasını qoyduğu layihə**

Xatırladaq ki, Ağdam-Xankəndi dəmir yolu 1979-cu ildə...

Bax səh. 5

## Atəşkəsə gedən yol...

Yaxın zamanda ABŞ ilə Ukrayna arasında mühüm sazişin imzalanması gözlənilir. Artıq Vaşinqton Ukraynadan öz istədiyini qoparmağı bacardı. Belə ki, aprelin 18-də ABŞ və Ukrayna nümayəndələri yeraltı sərvətlərin istismarına dair saziş bağlamaq niyyətlərini göstərən memorandum imzalayıblar. Ukraynanın Baş nazirinin birinci müavini və iqtisadiyyat naziri Yuliya Sviridenko yerli KİV-lərə açıqlamasında qeyd edib ki, hər iki ölkə Ukraynanın genişmiqyaslı bərpasına yönələn İnvestisiya Fondunun əsasının qoyulması istiqamətində işlərə başlayıb. Onun sözlərinə görə, müvafiq saziş əhəmiyyətli investisiyalar, infrastrukturun modernləşdirilməsi və Ukrayna ilə ABŞ arasında qarşılıqlı faydalı tərəfdaşlıq üçün imkanlar yaradacaq. Qeyd edək ki, memorandumu Yuliya Sviridenko və ABŞ-ın maliyyə naziri Skott Bessent imzalayıb. Hazırda ABŞ və Ukraynanın texniki qrupları imzalanması gözlənilən sazişin üzərində işləyirlər.

**Saziş Ukraynanın maraqlarına uyğundur?**

Xatırladaq ki, bu ilin fevralında Vaşinqton Ukraynada yeraltı mineral ehtiyatların istismarı üçün onun nəzarəti altında olan İnvestisiya...

Bax səh. 6

## NATO üzünü Türkiyəyə tutur...

Qərb dünyası yeni təlatümlərlə üzüzədir. Onillərdir ki, Avroatlantik zonanın əsas müdafiə çətiri sayılan NATO-da fikir ayrılıqları günü-gündən genişlənir. Xüsusilə, Donald Trampın hakimiyyətə gəlişindən sonra ABŞ-Avropa münasibətlərindəki gərginlik hərbi müdafiə sektorunu da əhatə etməyə başlayıb. Rəsmi Vaşinqton keçmiş administrasiyanın bütün sahələrdə olduğu kimi müdafiə sektorundakı siyasi xəttini düzgün hesab etmir. Ağ Evin fikrincə, digər NATO ölkələri, xüsusilə Qərbi Avropa özünün müdafiə xərcləri üçün lazımi maliyyəni ayırmır. Eyni zamanda, Ukrayna müharibəsinə baxış bucağı dəyişmək üzrədir. ABŞ rəsmi Kiyevə yardım məsələsində də müttəfiqləri ilə uzlaşa bilmir. Bunun nəticəsidir ki, artıq aylardır ard-arda NATO-nun fərqli ünvanlarda müxtəlif formatlarda toplantıları baş tutur. Xarici işlər, müdafiə nazirləri səviyyəsində baş tutan bu görüşlərdə məsələlərdən çıxış yolları axtarılır.

**Qeyri-rəsmi toplantı...**

Növbəti toplantı isə NATO-nun əsas ikinci ölkəsində - Türkiyədə keçiriləcək. Belə ki, NATO-nun mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, alyans üzvlərinin xarici işlər nazirləri mayın 14-15-də...

Bax səh. 7



## II raund...

Bax səh. 6



## ABŞ Suriyadan geri çəkilir

Bax səh. 7



# Dünyaya nümunə

## Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də insanların həyat tərzidir

Xristian dünyası müqəddəs Pasxa bayramı ərəfəsindədir. Dirçəlişin, yeniliyin, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olan bu bayram Azərbaycanda da yüksək səviyyədə qeyd edilir ki, bu da ölkəmizin hər cəhətdən nümunəvi olan multikultural mühiti ilə bağlıdır. Ənənəvi olaraq Prezident İlham Əliyev bu günlərdə Azərbaycanın pravoslav xristian icmasına Pasxa bayramı münasibətilə təbrik ünvanlayaraq Özünün xoş arzularını çatdırıb. "Bu gün milli-mənəvi həmrəyliyin və nümunəvi dözümlülük mühitinin hökm sürdüyü cəmiyyətimizdə xristian icmasının özünəməxsus yeri vardır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, xristian etiqadlı vətəndaşlarımız ölkənin ictimai-siyasi və mədəni həyatında layiqincə təmsil olunur, doğma evimiz Azərbaycanın inkişafına və tərəqqisinə əhəmiyyətli töhfələr verirlər", - deyə təbrikdə vurğulanıb.

Hazırda sivilizasiyanın yüksək mərhələsinə çatan bəşəriyyət eyni zamanda bir sıra ciddi sınaqlarla üzləşib. Dünyada müşahidə edilən mənzərə heç də ürəkaçan deyil. Dünyanın olduqca narahat mənzərəsinin ən diqqətçəkən amillərindən biri də mədəniyyətlərarası dialoqla bağlıdır. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır. Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan "qoca qitə"də bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, İslamofobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə alovlanan münaqişələrin və müharibələrin ssenariləri bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olmaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Bir sıra Qərb ölkələrində hətta liderlər səviyyəsində multikulturalizmin iflasa uğradığı bildirilir.

Dünyadakı belə kədərli mənzərə ilə müqayisədə respublikamızın mənzərəsi tamam fərqli rakusdan diqqət çəkir. Azərbaycanın dövlət başçısı İlham Əliyev dünyada multikulturalizmə davamlı şəkildə çağırış edən azsaylı liderlər sırasında yer alır. Başqa dinlərə, mədəniyyətlərə saygılı münasibət bəslənilməsi Azərbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respublikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əmin-amanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin mədəni özünüifadəsi üçün bərabər imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, ölkəmizin bütün etnik və dini azlıqları, o cümlədən xristian vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Azərbaycan həmçinin dünyada sivilizasiyalararası münasibətlərin inkişafına mühüm töhfələr verir və birgəyaşayışa çağırışlar edir. Prezident İlham Əliyev 2008-ci ildə sonradan bütün dünyada Azərbaycanın brendinə çevrilən "Bakı prosesi" təşəbbüsünü irəli sürüb. Bu təşəbbüs çərçivəsində Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa İttifaqının yüksəksəviyyəli rəsmilərini Bakıda bir araya gətirməyə və faydalı dialoq qurmağa nail olub. Bu prosesin tərkib hissəsi olaraq paytaxtımız Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna müntəzəm qaydada ev sahibliyi edir. Ölkəmizin mənzərəsini ümumiləşdirsək, belə deyə bilərik: Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də insanların həyat tərzidir. Azərbaycanın reallıqlarına diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Zəngin tolerantlıq ənənələrinə malik Azərbaycanda tarixin heç bir dönəmində din və məzhəb zəminində ayrı-seçkilik halları olmamış, etnomədəni müxtəliflik günümüzədək qorunub saxlanılmışdır. Cəmiyyətimizdə qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin, mütərəqqi ictimai-əxlaqi dəyərlərin təbliği və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindəndir".

Əlamətdar haldır ki, ölkəmizdə geniş əhatə dairəsinə malik olan multikulturalizm siyasətinin həyata keçirilməsində Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da fəal şəkildə iştirak edir. Fond indiyədək qurumun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə paytaxt Bakıda və regionlarda həm İslam dininə, həm də digər mədəniyyətlərə aid tarixi abidələrin bərpasını uğurla həyata keçirərək inanclı insanların istifadəsinə verib. Heydər Əliyev Fondu, həmçinin dünyanın ayrı-ayrı ölkələrində, o cümlədən də Vatikanda bir sıra tarixi-dini abidələrin bərpasını öz üzərinə götürərək onlara ikinci həyat bəxş edib.

*Mübariz FEYİZLİ*

---

**Türkiyə Böyük Millət Məclisinin millət vəkili cənab Mövlud Çavuşoğluya**

Hörmətli cənab Çavuşoğlu.

Ailənizə üz vermiş ağır itki - atanız Osman Çavuşoğlunun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu üzüntülü anlarda dərdinizə şərik çıxır, Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 18 aprel 2025-ci il**

---

# Prezident və birinci xanım "Sea Breeze"də...





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən layihələrlə tanış olublar

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban liyeva və ailə üzvləri Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən və qarşıdakı dövrdə planlaşdırılan layihələrlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov əvvəlcə dövlətimizin başçısına və birinci xanıma "Sea Breeze"də istismara verilmiş "Park Residences 2" layihəsi barədə məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində 1260 mənzildən ibarət yeddimərtəbəli 10 bina tikilib. Sakinlərin rahatlığını təmin etmək üçün burada müasir infrastruktur - hovuzlar, istirahət zonaları nəzərdə tutulub, həmçinin ərazidə geniş yaşıllaşdırılma işləri həyata keçirilib. Ölkəmizdə keçirilən COP29 çərçivəsində "Sea Breeze" ümumilikdə 4 minə yaxın qonaq qəbul edib ki, onlardan da çoxu məhz "Park Residences 2" layihəsinin binalarında yerləşib.

Sonra Prezident İlham Əliyevə "Sea Breeze"in ümumi baş planı və həyata keçirilmiş layihələr barədə məlumat verildi. Qeyd olundu ki, kompleksin ərazisində indiyədək 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. İstirahət mərkəzində sakinlər və qonaqlar üçün yüksək səviyyədə rahat şərait yaratmaq, həmçinin onların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə açıq və qapalı hovuzlar, fitnes mərkəzləri, restoranlar, kafelər, uşaq və idman meydançaları, qaçış və velosiped yolları, fəvvarələr yaradılıb. Burada məktəb, uşaq bağçası və xəstəxana da var.

Abadlıq işlərinə xüsusi diqqət yetirilib, 10 milyona yaxın bitki və ağac əkilib, yaşıllıq zonalarının ümumi sahəsi 300 hektara çatdırılıb.

Daimi yaşayış və yüksəksəviyyəli istirahət infrastrukturunu özündə birləşdirən "Sea Breeze" gələcəyin şəhəri kimi inamla inkişaf edir. Sahə üzrə ekspertlərin fikrincə, bu, çoxlu sayda müxtəlif formatlı daşınmaz əmlak obyektlərini bir ərazidə birləşdirən qlobal miqyaslı nadir layihədir.

Xəzər dənizinin sahilində, Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən "Sea Breeze" 500 hektar ərazini əhatə edir. Burada 1,5 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. Rekreasiya zonaları, parklar və çimərliklər üçün 150 hektardan çox ərazi ayrılıb.

Əsas layihələri sahil zolağında yerləşən "Sea Breeze" gələcəkdə ölkəmizin turizm imkanlarını artıracaq və Azərbaycanı turizm baxımından daha cəlbedici edəcək.

Nəhəng 11 mərtəbəli layner formasında inşa edilən mənzillərdən və hotel nömrələrindən ibarət flaqman daşınmaz əmlak layihəsi olan "Caspian Dream Liner" süni adada tikiləcək. Burada apart-hotel, ticarət mərkəzi və hovuzlar yaradılacaq. Bu unikal memarlıq quruluşu sayəsində "Sea Breeze" qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək.

İrimiqyaslı layihə fondunun hazırlanmasında bir neçə yerli və xarici memarlıq bürosu işləyir, layihələndirmə işlərinə dünyaşöhrətli memarlar cəlb olunur.

2028-ci ilədək burada daha 700 binanın tikilməsi, həmçinin ümumilikdə 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımadanın yaradılması nəzərdə tutulub. Bu layihədə dünyanın aparıcı mehmanxana şəbəkələrinin hotelləri, ticarət mərkəzləri, yaxtalar üçün dayanacaqlar, 40 mindən çox tamaşaçı tutumu olan konsert meydançası yer alacaq.

"Sea Breeze"də həyata keçirilən işlər həm də mühüm sosial rol oynayır, yeni iş yerlərinin açılmasına töhfə verir. Hazırda kompleksdə 6560 nəfər işlə təmin edilib və gələcəkdə bu rəqəmin xeyli artırılması nəzərdə tutulur. Burada yatırılan investisiyaların ümumi həcmi artıq 3 milyard dollar təşkil edir, yaxın beş ildə isə daha 5 milyard dollardan çox sərmayələrin cəlb edilməsi planlaşdırılır. 2024-cü ilin yekunlarına görə, "Sea Breeze" ölkə iqtisadiyyatına mühüm töhfə verərək Azərbaycan Respublikasının ən iri vergiödəyiciləri sırasında yer alıb.





# Xarici diplomatlar Xankəndi və Şuşada...

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndi və Şuşa şəhərlərinə səfər ediblər. Nümayəndə heyətini Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib. Nümayəndə heyəti əvvəlcə Füzuli Beynəlxalq Hava Limanına gəlib. Sonra diplomatik korpusun nümayəndələri Xankəndi şəhərinə səfər edib.

Əvvəlcə diplomatlar Qarabağ Universitetinə gəliblər. Universitetdə keçirilən tədbirdə çıxış edən Hikmət Hacıyev nümayəndə heyətinə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi müharibə cinayətləri barədə məlumat verib. O bildirib ki, Azərbaycanın apardığı düzgün və uğurlu siyasət təkcə münaqişəni sonlandırmadı, eyni zamanda, uzun illər işğal altında qalan torpaqlarımızın geri qayıtması ilə nəticələndi. Bu illər ərzində müharibə cinayətləri törətmiş şəxslər hazırda şəffaf və açıq məhkəmə prosesinə cəlb olunublar. H.Hacıyev qeyd edib ki, Azərbaycan beynəlxalq prinsiplərə əsaslanaraq özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib, Qarabağ və Şərqi Zəngəzur artıq yeni inkişaf mərhələsinə qədəm qoyub.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxışında rəhbərlik etdiyi təhsil ocağı, tədris prosesində əldə edilən uğurlar və qarşıya qoyulan hədəflərdən danışıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, işğaldan azad olunmuş ərazilərdə geniş tikinti-bərpa işləri həyata keçirilir, yeni müasir yollar çəkilir. Yaşayış məntəqələri elektrik enerjisi, içməli su və təbii qazla təmin edilir. Xankəndi şəhəri və digər





yaşayış məntəqələrində sahibkarlar üçün əlverişli mühit formalaşdırılır. Artıq Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları ərazisində 7 yaşayış məntəqəsində minlərlə insanın daimi məskunlaşması təmin edilib. “Tarixi qələbədən dərhal sonra dövlətimiz tərəfindən genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanıldı. Bu gün dövlətimizin bütün mümkün imkanları və resursları bu ərazilərin bərpasına yönəldilib. Azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri dövlət başçısının birbaşa nəzarəti altında yüksək templərlə davam etdirilir”,- deyən xüsusi nümayəndə əlavə edib ki, əhalinin geri dönüşü üçün sosial infrastruktur - məktəblər, tibb müəssisələri, ictimai xidmət binaları və yaşayış sahələri tikilir və istifadəyə verilir. 2024-cü ildən etibarən şagirdlərimiz öz doğma şəhər və kəndlərində müasir standartlara cavab verən məktəblərdə təhsil alırlar.

Xankəndi şəhərində Qarabağ Universitetinin təsis olunmasının və fəaliyyətə başlamasının bu bölgədə elmi, təhsil və intellektual mühitin dirçəlməsində mühüm rol oynayacağını söyləyən E.Yusubov deyib: “Bu gün burada müşahidə etdiyiniz dəyişikliklər, sadəcə, inşaat fəaliyyəti deyil - bu, ədalətin, tarixin və mədəniyyətin bərpasıdır”.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxışında işğaldan azad olunan ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları və tikinti-quruculuq işləri barədə məlumat verib.

Diplomatik korpusun nümayəndələri sonra Qarabağ Universiteti ilə tanış olub, tədris binası, kitabxana, auditoriya, laboratoriya və sərgi zalına baxış keçirib, incəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqi dinləyiblər. Xarici diplomatlar sonra Xankəndi şəhərinin mərkəzi hissəsi ilə tanış olub, Zəfər meydanının qarşısında xatirə şəkli çəkdiriblər.

Sonra diplomatik korpusun nümayəndələri Azərbaycan tarixinin və mədəniyyətinin simvolu olan Şuşa şəhərinə səfər ediblər. Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda aparılan quruculuq işləri barədə danışıb. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpası da həyata keçirilir.

Diplomatik korpusun nümayəndələri Şuşa şəhərinin Qarabağ küçəsində həyata keçirilən tikinti işləri ilə tanış olublar. Məlumat verilib ki, bu küçədə dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində ümumilikdə müxtəlif təyinatlı 10 binanın inşası aparılır. İnşa olunan binalar arasında mehmanxana, ofislər, iaşə obyektləri var. Tikinti işləri şəhərin ümumi görünüşünə uyğun həyata keçirilir. Binaların tikintisində Şuşa daşlarından istifadə olunaraq, Şuşanın tarixi-mədəni abidələrinə uyğunlaşdırılır. Bu binaların inşası tarixi Azərbaycan şəhəri olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir.

Nümayəndə heyəti sonra Aşağı Gövhər Ağa məscidinə gəlib. Məlumat verilib ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşa şəhəri tarixən yuxarı və aşağı olmaqla 17 məhəllədən ibarət olub. Aşağı Gövhər Ağa məscidi şəhərin aşağı hissəsində yerləşdiyinə görə belə adlandırılıb.

Səfər çərçivəsində xarici diplomatlar Şuşa şəhərində birinci yaşayış kompleksində yaradılan şəraitlə də tanış olublar. Bildirilib ki, təməli 2021-ci ildə qoyulan yaşayış kompleksinin açılışı 2024-cü il mayın 10-da olub. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilib. 23 binadan ibarət yaşayış kompleksində şuşalıların rahat yaşaması üçün hər cür şərait yaradılıb.

***Nardar BAYRAMLI***

---

# Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanı kimi...

**Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi bölgə xalqlarının maraqlarına cavab verir. Azərbaycan daim bu istiqamətdə təşəbbüslərlə çıxış edib. Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasından sonra bunun üçün real zəmin yaranıb. Aprelin 17-də Tbilisidə Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsaliya və Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan arasında üçtərəfli görüşün keçirilməsi bu baxımdan ilkin addımlardan biri sayıla bilər.**

## Üçtərəfli görüş konstruktiv olub

Qeyd edək ki, görüş hər üçün ölkənin XİN başçıları Ceyhun Bayramov, Maka Botçorişvili və Ararat Mirzoyanın təşəbbüsü ilə baş tutub. İlk növbədə, görüşdə iştirak edən üç Cənubi Qafqaz ölkəsinin XİN başçılarının müavinləri ilk üçtərəfli görüşünün keçirilməsini alqışlayıblar. Üç ölkənin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətə əsaslanan əməkdaşlıq potensialının imkanlarından hələ də tam şəkildə istifadə olunmadığı bildirilib.

Görüşün məqsədi regionda davamlı inkişaf və firavanlığı təşviq etmək naminə ümumi maraq daşıyan sahələrdə üçtərəfli əməkdaşlığı inkişaf etdirməkdir. Bununla yanaşı, müvafiq sahələrdə əməkdaşlıq ümumi problemlərin həllinə dəstək ola və nəticədə Cənubi Qafqaz regionunun uzunmüddətli sabitliyinə, sürətli inkişafına təkan verə bilər.

Açıq fikir mübadiləsi şəraitində keçən görüşdə potensial əməkdaşlıq sahələrinə dair baxışlar təqdim olunub. Sonda nazir müavinləri etimad quruculuğu və dialoqun daha yüksək səviyyəyə qaldırılmasına yol açmaq üçün ilkin mərhələ kimi qəbul edilən bu görüşün müsbət və konstruktiv atmosferdə keçdiyini qeyd ediblər.

## Regionda yeni reallıqların müəllifi Azərbaycandır

Əlbəttə, hazırkı şəraitdə Cənubi Qafqazın konfrantasiya yox, əməkdaşlıq məkanına çevrilməsində münbit şərait yaranıb. Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan regionda yeni reallıqların müəllifidir. Məhz yeni reallıqlar da bölgədə sülh və əməkdaşlıq imkanlarını təşviq edir. İndiyədək bu imkanın olmaması Ermənistanın Azərbaycan torpaqlarını 30 il ərzində işğal altında saxlaması idi. Artıq Azərbaycan öz gücünə işğala son qoyub və Ermənistana da sülh sazişi imzalamağı təklif edib. Bu ilin mart ayında isə tərəflər sülh sazişinin mətninin tam razılaşdırıldığını elan ediblər.

Xüsusi vurğulanmalıdır ki, bu razılaşma məhz Azərbaycanla Ermənistan arasında birbaşa danışıqlar nəticəsində əldə edilib. Halbuki beynəlxalq aktorlar - Rusiya, Avropa İttifaqı və ABŞ da tərəflər arasında münasibətlərin normallaşdırılması üçün vasitəçilik edirdilər. Amma onların vasitəçiliyi nəticə vermədi, hər iki ölkə birbaşa danışıqlara üstünlük verərək müsbət nəticəyə nail oldular. Ötən ilin may ayında Azərbaycan və Ermənistan birbaşa danışıqlar sayəsində sərhədlərin delimitasiya və demarkasiyası məsələsində də razılığa gəldilər. Bu razılıq nəticəsində Azərbaycanın Qazax rayonunun işğal altında olan 4 kəndi dinc yolla geri qaytarıldı. Eləcə də, iki ölkə arasında dövlət sərhəddinin 12 kilometrlik hissəsi rəsmi olaraq müəyyənləşib.

Təbii ki, bütün bunlar sülh sazişinin imzalanması üçün də yaxşı zəmin yaradır. Əgər Ermənistan Azərbaycanın haqlı olaraq irəli sürdüyü iki şərti (Ermənistan konstitusiyasında dəyişikliklər və ATƏT-in Minsk qrupunun ləğvi) yerinə yetirdikdən sonra sülh sazişini imzalamaq üçün heç bir maneə qalmayacaq. Növbəti mərhələ isə Cənubi Qafqaz üçün yeni perspektivlər açacaq.




## Bakıda verilən mesajların önəmi...

Əslində, üçtərəfli platforma ilə bağlı müsbət təcrübə mövcuddur. Məsələn, Azərbaycan-Türkiyə-Gürcüstan platformasını nümunə göstərə bilərik. Bu platforma çərçivəsində hər üç ölkənin liderlərinin, XİN başçıslarının, müdafiə nazirlərinin mütəmadi olaraq görüşləri keçirilir. Azərbaycan, Gürcüstan və Türkiyə arasında təməli illər öncə qoyulan uğurlu siyasi, iqtisadi əməkdaşlıq Avropa və Asiya qitələrinin qovuşuğunda yerləşən Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini xeyli artırıb. Bakı ilə Ankaranın təşəbbüsləri, o cümlədən sülh diplomatiyası bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır. Postmüharibə dövründə bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir. Qonşu Gürcüstan da iki dövlətlə birgə addımlayaraq regionun strateji gələcəyini birlikdə inşa etmək istəyini və niyyətini aydın ifadə edir.

Zaman yetişib ki, bu əməkdaşlıq platforması Cənubi Qafqazda da reallaşdırılsın. Bunun mesajı bir neçə gün öncə Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ölkəmizə rəsmi səfəri zamanı verildi. Belə ki, aprelin 16-da dövlət başçılarının mətbuata bəyanatı zamanı Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb: “Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir. Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdir. Ümid edirəm ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq”. Gürcüstanın dövlət başçısı da regionda sülhün və sabitliyin təmin olunmasının önəmini vurğulayaraq deyib: “Gürcüstanın bəyan etdiyi sülh siyasətini və regionda sülhün təmin olunmasına töhfə verməyə hazır olduğunu bir daha vurğulamaq istərdim. Sizi əmin etmək istərdim ki, Gürcüstan həmişə Cənubi Qafqazda dialoqun, diplomatiyanın, dinc yanaşı yaşamağın tərəfdarı olub və bu kurs gələcəkdə də davam edəcək”. Ölkə liderlərinin bu bəyanatlarından bir gün sonra Gürcüstanda üç ölkənin XİN başçılarının müavinləri səviyyəsində ilk üçtərəfli görüşün keçirilməsi Cənubi Qafqazın tezliklə sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün ümidləri artırır. Bunun reallaşması üçün qeyd etdiyimiz kimi, Ermənistanın sülh üçün real addımlar atması əsas şərtlərdən biridir.

***Nardar BAYRAMLI***

# Başlıbelin yenidən cənnətə çevriləcəyi gün uzaqda deyil

***Son 200 ildə erməni millətçiləri tərəfindən xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti tariximizin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, əzəli Azərbaycan ərazilərində uydurma "böyük Ermənistan" dövləti yaratmaq olub. Ermənilərin xalqımıza qarşı vəhşiliklərindən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində törədilib. Həmin faciədən artıq 32 il ötür.***

Bu sözləri Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqov deyib.

O qeyd edib ki, 1993-cü il aprelin əvvəllərində, Kəlbəcərin ermənilər tərəfindən işğalından sonra 2 minə yaxın əhalisi olan Başlıbel kəndinin 62 sakini evlərini vaxtında tərk edə bilməyib və düşməndən qorunmaq üçün dağlara çəkilib. Təəssüf ki, onlar kahalarda cəmi 18 gün gizlənə biliblər. Aprelin 18-də ermənilər sakinlərin sığındıqları kahaların yerini aşkarladıqdan sonra silahlı hücuma keçərək 18 nəfəri qətlə yetirib, 14 nəfəri isə girov götürüblər. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini tez-tez dəyişərək, yalnız gecələr hərəkət etməklə 113 gündən sonra gizli dağ yolları ilə Ermənistan ordusunun mühasirəsindən çıxa bilib. Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biri olan Başlıbelin tarixi, mədəni və dini obyektləri işğal zamanı dağıdılaraq məhv edilib.

Q.Sadıqov Başlıbel faciəsinin araşdırılmasının, tədqiqinin dövlətimiz tərəfindən diqqətdə saxlanıldığını vurğulayaraq deyib: "2017-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" layihəsi əsasında eyniadlı kitab nəşr edilib. Azərbaycan və ingilis dillərində işıq üzü görən nəşrdə Başlıbel kəndində törədilən qırğın haqqında canlı şahidlərin, mühasirədə qalanları xilas etmək üçün böyük fədakarlıq göstərən şəxslərin xatirələri yer alıb.

Başlıbel faciəsi ilə bağlı məlumatlar ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatına da daxil edilib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini, ermənilərin öz havadarlarının köməyi ilə iki yüz il ərzində xalqımıza qarşı törədilən soyqırımı siyasətinin ağır nəticələrini üzə çıxarmaq imkanı yaranıb. Soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövlətinin bütün zəruri addımları Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra başlanıb. Xalqımıza qarşı törədilən bütün soyqırımlarını qeyd etmək məqsədilə 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Prezident Fərmanı imzalayıb. Bununla da dəhşətli soyqırımlarına, faciələrə hüquqi-siyasi qiymət verilib".

Bu siyasəti uğurla davam və inkişaf etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində xalqımız böyük Zəfər qazanıb. Ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı məhz 44 gün davam edən Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatında verilib. Soyqırımı qurbanlarının, şəhidlərimizin qısasını Azərbaycan Ordusu döyüş meydanında alaraq düşməni kapitulyasiya aktına imza atmağa məcbur edib. Beləliklə, 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu bir güllə atılmadan, bir şəhid verilmədən düşmən tapdağından azad edilib. Baş Planı təsdiq olunan Kəlbəcərdə hazırda geniş tikinti-quruculuq işləri həyata keçirilir.

Sektor müdirinin sözlərinə görə, faşist ideologiyasına xidmət edən erməni şovinistləri Azərbaycan və türk xalqına qarşı hər zaman düşmən mövqedə olublar. Onlar müxtəlif dövrlərdə xalqımıza qarşı kütləvi qətliamlar törədib, soyqırımı aktları həyata keçiriblər. Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpərdən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir, təkzibolunmaz arxiv sənədləri, soyqırımları və ermənilərin digər cinayətlərini təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Belə ki, 2021-ci il fevralında Şuşa rayonunun Daşaltı kəndində 7 nəfərin basdırıldığı kütləvi məzarlıq tapılıb. 2021-ci ilin aprelində Başlıbeldə də belə məzarlıq, 2022-ci ilin martında Xocalı rayonunun Fərrux kəndində meyit qalıqları aşkar edilib. Həmin ilin sentyabrında Xocavənd rayonunun Edilli kəndində 18 nəfərə aid meyit qalıqları aşkarlanaraq kütləvi məzarlıqdan çıxarılıb. 2024-cü ilin fevralın 21-də isə Xocalı şəhərinin mərkəzində, keçmiş xalça fabrikinin yaxınlığında bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı kütləvi şəkildə basdırılan insan qalıqları aşkarlanıb. Bütün bu faktlar, həmçinin Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyindən hələ də mməlumatın olmaması ermənilərin insanlıq əleyhinə ağır cinayətlərindən xəbər verir.



"Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi hazırda davam edir. Cinayət işində 15 nəfər ittiham olunur. Onlar İkinci Qarabağ müharibəsindən sonra ərazi bütövlüyümüzün təmin edilməsi zamanı həbs olunaraq istintaq təcridxanasına göndəriliblər. Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərlərinin, eləcə də Ruben Vardanyanın məhkəməsi davam edir", - deyə Q.Sadıqov bildirib.





O, Başlıbel kəndində törədilən faciə ilə bağlı yazılan əsərlərdən də bəhs edib: "Başlıbel kənd sakini, hadisələrin canlı şahidi Hüseyn Şahbəndəyev hələ 1993-cü ilin mayında "Cavanşir yurdu" qəzetində "Kəlbəcəri verməmək də olardı" sərlövhəli yazısında həm rayonun müdafiəsiz qalması, həm də Başlıbel faciəsi öz əksini tapıb. Həmin hadisələrlə əlaqədar digər məqalələri ilə yanaşı, Hüseyn Şahbəndəyev xeyli əvvəl yazdığı "Qanlı kaha" sənədli hekayəsini 2007-ci ildə Ulduz jurnalının 10-cu nömrəsində çap etdirib. Başlıbel sakini, Qarabağ müharibəsinin iştirakçısı, tanınmış jurnalist Elxan Salahov faciə haqqında yazdığı "Qanlı kaha" kitabını 2019-cu ildə nəşr etdirib. Kitabda Başlıbel kəndində mühasirədə qalan sakinlərin 4 aya yaxın çəkdikləri əzab-əziyyətdən və mühasirədən necə çıxmalarından bəhs olunur. Qeyd edək ki, Elxan Salahovun qardaşı Kəlbəcər uğrunda döyüşlərin birində şəhid olub.

2022-ci ildə Azərbaycan Televiziyası "Başlıbel - Bir kəndin mühasirə gündəliyi" adlı sənədli film çəkib. Filmin ssenari müəlliflərindən biri də Elxan Salahovdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasında videoformatda çıxış edərkən Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilən 12 mülki şəxsin qalıqlarının 2021-ci ilin aprelində Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarlıqda tapıldığını xüsusilə diqqətə çatdırıb.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Başlıbel faciəsinə dair dəlil və sübutların toplanaraq geniş ictimaiyyətə çatdırılması istiqamətində mühüm addımlar atılıb. 2021-ci ilin aprelində Başlıbel kəndində 12 nəfərin basdırıldığı kütləvi məzarlıq aşkarlanıb, jurnalistlərin və hadisə şahidlərinin həmin əraziyə səfərləri təşkil olunub, çoxlu sayda ictimai müzakirələr keçirilib. Eyni zamanda, Başlıbel faciəsindən bəhs edən "Qanlı kaha" kitabının motivləri əsasında 4 hissəli sənədli film çəkilib.

Başlıbel faciəsinin 32-ci ildönümü ilə əlaqədar bu il aprelin 2-də isə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) Kəlbəcərin tanınmış ziyalılarından olan Arif Süleymanovun "Başlıbel qətliamı - Üç yüz illik "Qarabağ problemi"nin qanlı səhifələri" adlı kitabının təqdimatı keçirilib.

Başlıbeldən danışarkən, ilk növbədə, şəhidlərin, həmçinin kəndin tanınmış ziyalıları Əli Mirzəyevin, Musa Əzizovun, Saleh Mirzəyevin, Zülfüqar Hüseynzadənin xatirəsini hər zaman ehtiramla yad edirik.

Bütün dövrlərdə ölkəmizə hər bir sahə üzrə vətənpərvər ziyalı ordusu bəxş edən Başlıbelin yenidən cənnətə çevriləcəyi gün uzaqda deyil". (AZƏRTAC)

# Moskvanın Zəngəzur dəhlizi planı

Postmüharibə dövründə respublikamızın təşəbbüsü və fəal səyləri əsasında başlayan Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesi müsxtəlif istiqamətləri əhatə edir. Burada mühüm komponentlərdən biri də kommunikasiya bağlantılarının blokdan çıxarılması, o cümlədən də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Bu məsələ zamanında artıq hər iki tərəf səviyyəsində razılaşdırılan sülh sazişi layihəsinin mətnindən ayrılsa da, normallaşma prosesində vazkeçilməz aktuallığını saxlamaqdadır.

Xatırladaq ki, 2020-ci il 10 noyabr taixində Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın Baş nazirinin imzaladıqları üçtərəfli bəyanatda regional kommunikasiyaların açılması ilə bağı konkret müddəa öz əksini tapıb. Bəhs olunan sənədin 9-cu bəndində oxuyuruq: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir".

## Zəngəzur dəhlizi geosiyasi və geoiqtisadi reallıqlar kontekstində

Bəyanatda "Zəngəzur dəhlizi" ifadəsi işlədilməsə də, Azərbaycanın əsas hissəsi ilə uzun illər ərzində blokada şəraitində yaşamaq məcburiyyətində qalmış Naxçıvanı birləşdirəcək marşrut konkret şəkildə göstərilib. Yəni söhbət Ermənistan üzərindən maneəsiz keçməklə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında kommunikasiya bağlantısının yaradılmasından gedir. Bunu həm də hələ keçmiş sovet dönəmində mövcud olmuş, sonradan isə Ermənistanın üç onillik ərzində bağlı saxladığı marşrut anlamında qəbul edə bilərik. Sonradan Azərbaycan Prezidenti İlham Əliyev bəhs olunan marşrut haqqında "Zəngəzur dəhlizi" ifadəsini gündəmə gətirdi. Bu, qeyd olunan marşrutun ən doğru adlandırılmasıdır. Tarixi xəritələrdə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasındakı ərazi respublikamıza məxsus olmaqla məhz Zəngəzur adlanırdı. Sonradan həmin ərazi imperialist güc mərkəzlərinin məkrli ssenarilərinə uyğun olaraq respublikamızdan alınıb və Ermənistanın ərazisinə qatılıb. "Zəngəzur dəhlizi" ifadəsində də məhz tarixə və coğrafi yerləşməyə istinad olunur. "Dəhliz" sözü də üçtərəfli bəyanatda ifadə olunan "maneəsiz keçid" ifadəsinə tam adekvatdır.

Zəngəzur dəhlizinin açılması qalib Azərbaycanın tarixi və strateji maraqlarına uyğundur. Buna görə də ölkəmiz bu məsələdə israrlı yanaşma sərgiləyir, o mövqedən çıxış edir ki, Zəngəzur dəhlizi mütləq açılmalıdır. Eyni zamanda, ölkəmiz məsuliyyətli dövlət kimi bəhs olunan kommunikasiya xəttinin respublikamızın ərazisinə düşən hissəsində zəruri infrastrukturun yaradılmasını fəal şəkildə davam etdirir.

Ancaq sürətlə dəyişən geosiyasi və geoiqtisadi reallıqlar fonunda aydın görünür ki, Zəngəzur dəhlizinin önəmi yalnız Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında bağlantı yaradılması ilə məhdudlaşmır. Hazırda dünya nizamı sürətlə yenilənir. İndi Avrasiyada tamam fərqli mənzərə yaranıb. Rusiya-Ukrayna müharibəsi fonunda ölkələrin və şirkətlərin əvvəlki işlək marşrutlara çıxış imkanları məhdudlaşıb. Daha təhlükəsiz yollar tapılmalıdır. Eyni zamanda, dəyişən dünya nizamında regionların təchizat zəncirində transformasiyalara ciddi ehtiyac yaranıb. Xüsusilə də ABŞ-ın tarif siyasəti Avropa və Asiya ölkələrinin, o cümlədən də dünya nəhəngi Çinin yaxın perspektivdən gec olmayaraq təchizat-satış coğrafiyasında korrektələr etmək zərurətini ortaya çıxarıb. Son günlərdə verilən açıqlamalar Avropanın Çinlə, resurs bazası olan Mərkəzi Asiya ilə yaxınlaşmaq istəyindən çıxış etdiyini təsdiqləyir. Beləliklə, aydın olur ki, Avrasiyada nəhəng yük dövriyyəsinin başlayacağı era uzaqda deyil. Bəs artan yüklər hansı yollarla ötürüləcək? Nəzərlər ilk növbədə Azərbaycanın əsas həlqə təşkil etdiyi Transxəzər marşrutuna (Orta dəhlizə - red.) yönəlir. Hələlik Çin sərhədlərindən başlayan bu marşrut yalnız bir istiqamətdə - Azərbaycan və Gürcüstan üzərindən keçməklə Avropaya çatır. Son vaxtlarda Azərbaycanın səyləri əsasında infrastruktur genişləndirilsə də, bir xətlə artan yüklərin daşınması gələcəkdə sadəcə mümkün olmayacaq. Orta Dəhlizin şaxələndirilməsi və Zəngəzur dəhlizinin yaradılması ilə bu məhdudiyyət aradan qalxa bilər. Buna görə də Azərbaycanla yanaşı, daha geniş coğrafiyalarda yerləşən ölkələr də Zəngəzur dəhlizinin açılmasına böyük maraq göstərirlər.




## Məsuliyyətdən yayınan Ermənistanın utopik layihələri

Zəngəzur dəhlizinin açılması bütün region dövlətlərinin mənafeyinə uyğundur. Bununla qonşu ölkələr arasında yeni inteqrasiya imkanları yaranacaq. Bu marşrutun, eyni zamanda, Ermənistanın özü üçün vazkeçilməz əhəmiyyəti var. Ölkə işğalçılıq siyasətinə görə uzun müddətdən bəri dalan vəziyyətindədir. Onun böyük dünyaya çıxış imkanları qonşu İran, Gürcüstandakı "Lars" keçid məntəqəsi ilə məhdudlaşır. İranın sanksiyalar altında olması, eləcə də soyuq qış aylarında "Lars"ın tranzit daşımaları üçün bağlanması Ermənistanın vəziyyətinin nə qədər kritik olduğu barədə konkret təsəvvür yaradır. Zəngəzur dəhlizinin açılması isə Ermənistanın xarici aləmə çıxışındakı məhdudiyyətləri aradan qaldıracaq.

Son vaxtlarda Nikol Paşinyanın və digərlərinin verdikləri bəyanatlardan aydın olur ki, rəsmi İrəvan da reallığı qəbul edir. Bununla belə, Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin açılmasında ortaya qətiyyətli siyasi iradə qoya bilmir. İndiyədək Zəngəzur dəhlizinin işlək vəziyyətə gətirilməməsinin əsas səbəbi məhz Ermənistan rəhbərliyinin riyakarlığıdır. Paşinyan və onun komandasının üzvləri müxtəlif auditoriyalar qarşısında "biz kommunikasiyaların blokdan çıxarılmasına hazırıq" desələr də, praktiki müstəvidə hansısa bir addım atmağa tələsmirlər. Bunun əvəzində, rəsmi İrəvan tərəfindən "Sülh kəsişməsi" və yaxud "Dünyanın kəsişməsi" kimi utopik layihələr irəli sürülür. Mütəxəssislər dəfələrlə əsaslandırıblar ki, həmin layihələrin Zəngəzur dəhlizi ilə müqayisədə cəlbediciliyi hədsiz dərəcədə aşağıdır. Təklif olunan marşrutlar dağlıq ərazilərdən keçir, məsafə uzundur, infrastrukturu sıfırdan qurmaq lazımdır və s.

Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin açılmasını yubadarkən müxtəlif bəhanələr gətirir. Halbuki Zəngəzur dəhlizinin açılmasının Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirəcəyi ilə bağlı səsləndirilən iddiaların hansısa bir əsası yoxdur. Digər tərəfdən, Zəngəzur dəhlizinin açılması Ermənistanın bilavasitə məsuliyyətidir. Üçtərəfli bəyanata imza atan Paşinyan bununla üzərinə öhdəlik götürüb və bu öhdəliyi də yerinə yetirməlidir.

## Moskva: Kommunikasiyaların açılması aktuallığını qoruyub saxlayır

Qeyd etdiyimiz kimi, Zəngəzur dəhlizinin açılması region dövlətlərinin də marağındadır. "2020-2022-ci illərdə Rusiya, Azərbaycan və Ermənistan arasında əldə olunmuş kompleks razılaşmalar, o cümlədən kommunikasiyaların açılması məsələsi tam şəkildə öz aktuallığını qoruyub saxlayır". Bunu jurnalistlərə Rusiyanın Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova söyləyib.

Moskvanın bu razılaşmaların icrasına necə kömək edə biləcəyi ilə bağlı sualı cavablandıran M.Zaxarova vurğulayıb ki, "üçtərəfli formatda tamhüquqlu qarşılıqlı fəaliyyətin tezliklə bərpası Cənubi Qafqazda davamlı sülhün və rifahın təmin olunmasına şərait yarada bilər".

Diplomat əlavə edib ki, Rusiya "tərəfdaşları olan Azərbaycan və Ermənistana iki ölkə arasında barışığın əsas istiqamətləri üzrə kömək göstərməyə hazırdır".

Rusiya XİN nümayəndəsinin sözlərinə görə, Moskvanın Rusiya, Azərbaycan və Ermənistanın baş nazir müavinlərinin həmsədrlik etdiyi ixtisaslaşmış üçtərəfli işçi qrup çərçivəsində nəqliyyat və iqtisadi kommunikasiyaların açılması üzrə təcrübəsi mövcuddur. "Biz sərhədlərin delimitasiyası və demarkasiyasında təcrübəmizi bölüşməyə hazırıq və bu sahədəki mütəxəssislərimizin postsovet məkanında ən yaxşılar sırasında olduğunu düşünürəm", - deyə M.Zaxarova bildirib. O, həmçinin qeyd edib ki, Rusiyanın "unikal kartoqrafik materialı" var.

Qeyd edək ki, Moskvadan kommunikasiyaların açılmasına kömək təklifi əvvəllər də səsləndirilib. Ancaq öhdəliklərindən yayınmağa çalışan Ermənistanda belə təkliflər birmənalı qarşılanmır.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan və Sloveniya yeni anlaşmalar əldə edib

## Bakıda keçirilən biznes-forum ölkələr arasında iqtisadi-ticari və sərmayə imkanlarının artmasına şərait yaradacaq

Azərbaycan və Sloveniya arasında siyasi və iqtisadi əlaqələr son illərdə dayanmadan inkişaf edərək etibarlı dostluq səviyyəsinə yüksəlib. Münasibətlərdə yaranmış yeni istiqamətlər tərəflərin bir sıra layihələrdə birgə addımlar atmasını meydana çıxarıb. Xüsusilə də regionda baş verən yeni geosiyasi amillər, Balkan ölkələrinin Azərbaycanla iqtisadi təmaslarında intensivliyin artması Sloveniya ilə də iqtisadi-ticari və tranzit əlaqələrinin genişləndirilməsini meydana çıxarır.

**SOCAR Sloveniyanı qazla təmin edir**

Azərbaycanın regionda dinamik inkişaf gücünü və enerji-nəqliyyat potensialını nəzərə alan Sloveniya ölkəmizlə bu sahələrdə yaxın əməkdaşlıq əlaqələri qurmaq niyyətindədir. İki ölkə arasında son bir il ərzində enerji sahəsində səmərəli əlaqələr qurulub, 2024-cü ilin iyulunda Sloveniyanın ətraf mühit, iqlim və energetika naziri Bojan Kumerin ölkəmizə səfəri zamanı "Geoplin" şirkəti ilə SOCAR arasında təbii qaz tədarükü sahəsində əməkdaşlıq haqqında Memorandum imzalanıb. Həmin razılaşmaya uyğun olaraq, SOCAR 2024-cü il avqustun 1-dən Sloveniyaya qaz tədarükünə başlayıb.

2025-ci il aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərin 11-ci iclasında Azərbaycan və Sloveniya arasında "Energetika Sahəsində Əməkdaşlıq üzrə Anlaşma Memorandumu" imzalanıb.

Memorandum enerji sahəsində, o cümlədən enerji təhlükəsizliyi və qaz təchizatının şaxələndirilməsi, hidrogen də daxil olmaqla yaşıl enerji texnologiyaları üzrə əməkdaşlığın inkişaf etdirilməsi və bərpaolunan enerji mənbələrindən istifadəyə dair təcrübə mübadiləsinin genişləndirilməsini əhtiva edir.

Rəsmi Lyublyana perspektivdə enerji sahəsində münasibətlərin daha da inkişaf etdirilməsi üçün əlavə addımlar atacağını gizlətmir. Gələcəkdə "yaşıl enerji" sektorunda da layihələrin icrası istisna edilmir.

**Birgə avtomobil müəssisəsi təşəbbüsü**

Sloveniya Azərbaycanı etibarlı tərəfdaş və sadiq tədarükçü, iqtisadi təchizatçı hesab edərək digər sahələrdə də yeni anlaşmalar əldə etməyə çalışır. Bu ölkənin xarici və Avropa işləri üzrə naziri Tanya Fayon Bakıda keçirilən Azərbaycan-Sloveniya biznes-forumunda bildirib ki, ölkəsi Azərbaycanla qonşu olmasa da, ətraf coğrafiyalarla kommunikativ bağlantılar qurmaqla qarşılıqlı əlaqələri inkişaf etdirmək niyyətindədir. Bu məqsədlə hökumət və biznes nümayəndələrindən ibarət komanda yeni strateji sənəd layihəsi hazırlayıb.

Biznes-forumunda çıxış edən Azərbaycanın maliyyə nazirinin birinci müavini Anar Kərimov isə bildirib ki, əczaçılıq sənayesində istehsal hər iki ölkənin maraq doğuran sahələrindəndir. Bu sahələrdə tərəflərin prioritet inkişaf istiqamətləri üst-üstə düşür. Eyni zamanda, tərəflər texnologiya, innovasiya və İT, tranzit, kənd təsərrüfatı, sənaye sahələrində yüksək nailiyyətlərə nail olmaq üçün birgə platforma qurmaq istəyir.

Bundan başqa, tərəflər turizm sektorunun potensialını nəzərdən qaçırmamaq, bu istiqamətdə imkanları səfərbər etməkdə maraqlıdır. Hər iki ölkənin zəngin mədəni irsi, möhtəşəm təbiəti və tarixi abidələri qarşılıqlı turizm üçün geniş imkanlar yaradır. Sloveniyanın iqtisadiyyat, turizm və idman nazirinin katibi Mitja Blaganje isə avtomobil sənayesi sahəsində Azərbaycanla birgə müəssisələr yaradaraq regionda geniş maşın təchizatı şəbəkəsi qurmağı təklif edib.

**Sloveniya nəqliyyat şəbəkəsini Orta Dəhlizə birləşdirir**

Azərbaycan coğrafi baxımdan əhəmiyyətli regionda, Qərb ilə Şərqi birləşdirən ticarət yollarının üzərində yerləşir. Ölkəmizin yer aldığı qlobal nəqliyyat marşrutu olan Orta Dəhliz Avropada ticarətin genişlənməsi üçün olduqca əhəmiyyət kəsb edir və Sloveniya da bu dəhlizdən istifadə edərək Şərqlə ticarət əlaqələrini genişləndirmək niyyətindədir. Cari il aprelin əvvəlində Qazaxıstan və Sloveniyanın dövlət başçıları - Kasım-Jomart Tokayev və Nataşa Pirç Musarın görüşü zamanı nəqliyyat və logistika sektorunda kommunikasiyaların əhatə dairəsinin genişləndirilməsi zamanı rəsmi Lyublyana Orta Dəhlizə qoşulmaq niyyətini ifadə edib. Sloveniya hökuməti Adriatik dənizindəki Koper dəniz limanının digər nəqliyyat xətlərinə inteqrasiya olunması sayəsində Orta Dəhlizə çıxış əldə etmək istəyir. Nataşa Pirç bildirib ki, Qazaxıstanla əldə edilmiş ortaq razılığa əsasən, yaxın vaxtlarda səlahiyyətli orqanlar nəqliyyat sxemlərinin əlaqələndirilməsi üçün konkret tədbirlər görəcək.

**Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət imkanları**

Azərbaycan Sloveniya şirkətlərinin biznes planlarının təkcə paytaxtla məhdudlaşmasını istəmir, regionlararası biznes əlaqələrinin inkişafı və əməkdaşlığın şaxələndirilməsi üçün təşviqedici addımlar atmaq, bölgələrə qarşılıqlı investisiyaların cəlb etmək üçün səmərələşdirici alətləri tətbiq etməyi düşünür. Bu siyasət çərçivəsində Sloveniya şirkətlərini Qarabağ və Şərqi Zəngəzurda icra olunan biznes layihələrinə də dəvət edib. Ölkəmizin əlverişli geostrateji mövqeyi, regionda lider iqtisadiyyatı, müasir infrastrukturu, ələlxüsus da azad ərazilərdə xarici investorlar üçün yaradılan sağlam investisiya mühiti, tətbiq olunan vergi, gömrük güzəştləri, iqtisadi stimullar, digər güclü dövlət dəstəyi tədbirləri xarici iş adamları, o cümlədən sloveniyalı biznes icması üçün yaxşı fürsətlər yaradır.

Qeyd edək ki, biznes-forum çərçivəsində iki ölkənin biznes strukturu arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandum Sloveniyanın "Kontron" şirkəti ilə Azərbaycanın "Bestcomp" şirkəti arasında əməkdaşlığı əhtiva edir.

Beləliklə, Azərbaycan-Sloveniya biznes-forumu hər iki ölkə arasında iqtisadi-ticari bağlantıları yeni mərhələyə aparmaqla, dövlət-özəl şirkətləri, biznes strukturları arasında işgüzar mühitin yaranmasına səbəb olacaq, qarşılıqlı sərmayələrin həcminin artmasına şərait yaradacaq.





*ELBRUS CƏFƏRLİ*

# Bölgədə iqtisadi inkişafa və turizmə açılan yol

## Ağdam-Xankəndi dəmir yolu xəttinin tikintisinə başlanılır

"Azərbaycan Dəmir Yolları" (ADY) QSC Ağdam-Xankəndi dəmir yolu xəttinin layihələndirmə işlərinə başlayıb. Layihə tamamlandıqdan sonra cari ilin qarşıdakı aylarında dəmir yolunun tikinti işlərinə başlanması nəzərdə tutulur. Artıq bununla bağlı podratçı şirkət seçilib və mobilizasiya işləri davam etdirilir. ADY sədrinin müşaviri Tural Abbaslı "Nəqliyyat İnfrastrukturunun inkişafına dair sual və təkliflərin müzakirəsi" mövzusunda keçirilən "Milli Biznesin İnkişafı Forumunda bildirib ki, Ağdamdan Xankəndiyə qədər uzanan dəmir yolunun uzunluğu 27-28 kilometrdir.

Tural Abbaslı əlavə edib ki, Ağdam avtovağzal və dəmir yolu kompleksinin tikintisi tamamlanma mərhələsindədir: "İşlərin növbəti ayın əvvəllərinə tam olaraq bitməsi nəzərdə tutulub. Bu, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ilə birgə çalışdığımız layihədir. Burada şəhərlərarası, rayonlararası marşrutlar və dəmir yolu stansiyası fəaliyyət göstərəcək.



**Ulu öndərin əsasını qoyduğu layihə**

Xatırladaq ki, Ağdam-Xankəndi dəmir yolu 1979-cu ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə inşa olunub. Məqsəd Qarabağın inkişafında mühüm rol oynayan sənaye istehsalı və emalı tədarüklərini gücləndirmək və digər bölgələrlə nəqliyyat inteqrasiyasını təmin etmək idi və sözügedən dəmir yolu xətlərinin çəkilməsi Xankəndinin digər sənaye sistemlərinə qoşulmasına təkan verib. Həmin dövrdə Ağdam-Xankəndinin illik daşınma gücü illik 1 milyon ton idi və kifayət qədər böyük mal axınlarının təchizatını təmin edirdi. Nəqliyyat xətti Yevlax-Bakı dəmir yoluna qoşulmaqla Qarabağın sosial-iqtisadi, mədəni inkişafı daha da sürətləndirdi, Bakı ilə əlaqələri möhkəmləndirdi. Bu, əhalinin maddi-texniki təchizatını yaxşılaşdırmaqla bərabər, həm də regionun iqtisadi göstəricilərinin əhəmiyyətli dərəcədə artmasına imkan verdi. Məsələn, xammalın tədarükü və məhsulların daşınması xərclərinin azalması düşməsi səbəbindən Qarabağda istehsal olunan məhsulların maya dəyəri xeyli ucuzlaşdı.

**Sahibkarlar üçün yeni fürsətlər**

Ermənistanın Azərbaycana hərbi təcavüzü və ərazilərimizin 20 faizinin işğalı nəticəsində iqtisadiyyatın digər sahələri kimi respublikanın dəmir yolu təsərrüfatı, o cümlədən Ağdam-Xankəndi, Bərdə-Yevlax-Xankəndi dəmir yolu da dağıdılaraq sıradan çıxarılıb. Hazırda azad edilmiş torpaqlarımızda bütün nəqliyyat-yol infrastrukturları yenidən qurulur və Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı çərçivəsində inşa edilən Xankəndi dəmir yolu xətti bu qurucuļuq planının ən mühüm həlqələrindən biridir.

Yeni dəmir yolu sadəcə nəqliyyat layihəsi deyil, eyni zamanda, iqtisadi inkişaf və rifahı təmin edəcək proqramın mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər. Yol və digər kommunikasiyaların qurulması bölgədə sahibkarların fəaliyyəti, biznesin yeni layihələrinin icra edilməsi, xarici və yerli sərmayə qoyuluşları, milli istehsalın artması və ixracın diversifikasiyası üçün mühüm əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, Xankəndi zəngin iqtisadi potensiala və xammal ehtiyatlarına malik bölgədir, burada sənaye, emal-kənd təsərrüfatı, turizm üçün münbit şərait mövcuddur.

**Xankəndinin ətraf rayonlarla bağlantısı təmin ediləcək**

Hazırda Xankəndi şəhərində iqtisadi layihələrin icrasına start verilib və bölgədə sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar açılıb. İş adamları, sənaye icması Xankəndi şəhərində və ətraf rayonlarda çoxistiqamətli layihələrə cəlb olunub, xidmət, turizm, emal sənayesi infrastrukturları yaradılmaqdadır. "Qarabağ", "Palace", "Bulud", "Şəfəq" və digər hotellərin, turizm, iaşə və xidmət obyektlərinin açılışı Xankəndinin inkişafında yeni mərhələ açıb. Habelə, şəhərdə dövlət-özəl sektor və biznes icmasının istehsal və xidmətlə bağlı imkanları səfərbər edilir. Bütün bu proseslər bölgənin digər şəhər və rayonlarla reinteqrasiyaya qoşulmasını artırır. İnşa edilən nəqliyyat layihələri Xankəndinin təkcə Ağdamla deyil, digər rayonlarla bağlantısının həll edəcək, eləcə də Şuşa, Əsgəran, Ağdərə və digər rayonlarla sərnişin və yük daşınmalarının vahid zəncirdə birləşməsini mümkünləşdirəcək.

Beləliklə, Ağdam-Xankəndi nəqliyyat qovşaqlarının yaradılması, kommunikasiya xətlərinin açılması region üçün perspektiv inkişafın sürətlənməsinə səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Manatın məzənnəsi sabit saxlanılacaq

## Hökumətin yeni proqnozlarına əsasən, manatın dollara qarşı məzənnəsi 1,70 AZN intervalında götürülüb

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlara əsasən, 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində, yəni 1,70 AZN intervalında götürülüb.

Manatın məzənnəsini ölkəyə daxil olan valyutanın həcmi, Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləği və digər amillər müəyyən edir. Hazırda ölkəmizə daxil olan xarici valyutanın həcmini təmin edən dayanıqlı resurslar mövcuddur. Məzənnəyə təsir göstərən amillərdən biri kimi dünya bazarında neftin orta satış qiyməti də mühüm rol oynayır. Sözsüz ki, yüksək neft qiymətləri ölkəyə daha çox xarici valyuta axınını təşviq etməklə, manatın möhkəmlənməsinə səbəb olur.

**Neft Fondu dollar tələbini tam qarşılayır**

Ölkəmizdə valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir ki, bu da manat-dollar münasibətlərinin tənzimlənməsində təsiredici faktorlardan biridir. Neft Fondu illik neft-qaz satışlarından orta hesabla 12-14 milyard manatlıq transferti həyata keçirmək imkanına malikdir. Neft Fondu neft və qaz satışından əldə etdiyi gəlirləri valyuta hərracları vasitəsilə sataraq manatla büdcəyə transfer edir. Neft Fondunun 2025-ci il üzrə transferti 14,4 milyard



manat həddində təsdiq edilib. Bu, dollar ifadəsi ilə 8,5 milyard dollar deməkdir. Yaxud aylıq 700 milyon dollar transfert öhdəliyidir. DNF 2025-ci ilin 1-ci rübündə dövlət büdcəsinə 3 milyard 620 milyon manat həcmində vəsait transfert edib ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 425 milyon manat və ya 13,3 faiz çoxdur. Fondun qarşıdakı 9 ay ərzində 10,8 milyard manat öhdəliyi var ki, bu da dollar ekvivalenti ilə 6,3 milyard dollar deməkdir.

Azərbaycanın gündəlik 560 barel neft ixracı fonunda neftin pessimist proqnozu üzrə, yəni 60 dollardan gəlirləri nəzərə alsaq, bu, ayda təxminən 800-850 milyon dollar deməkdir. Bu ssenari üzrə Neft Fondu 9 ayda 7-7,5 milyard dollar qazanmaqla bazarın dollara olan 6,5 milyardlıq tələbini tam ödəməklə, manatın məzənnə sabitliyini tamamilə qorumuş olur. Yəni, Neft Fondu təkcə neft satışından ən aşağı pessimist ssenari üzrə əldə etdiyi dollar portfeli manat tələbini bağlamaqla, təsirləri minimallaşdırır.

**Milli valyutaya təzyiq edəcək amillər neytrallaşdırılır**

Qlobal bazar ssenarilərinə əsasən, neftin qiymətinin pessimist ssenaridə dövr edəcəyi gözlənilmir. ABŞ Enerji İnformasiya Administrasiyasının (EIA) proqnozlarına əsasən, tədricən artan hasilat və qlobal neft tələbinin nisbətən zəif artımı 2025-ci ilin ikinci yarısından etibarən və 2026-cı il ərzində qiymətlərin azalmasına təsir edəcək. Nəticədə, "Brent" markalı xam neftin bir barrelinin orta qiymətinin 2025-ci ildə 74 dollar, 2026-cı ildə 66 dollar səviyyəsində qalacağı fərz edilir. Bununla yanaşı, Avropada qlobal mayeləşdirilmiş təbii qaz tələbinin yüksək olması və təchizat məhdudiyyətləri fonunda qaz qiymətlərinin 2025-ci ildə 11 faiz artacağı, 2026-cı ildən etibarən əlavə mayeləşdirilmiş təbii qaz təchizatının bazara daxil olması ilə 8 faiz azalacağı proqnozlaşdırılır. Bu ssenarilər ona dəlalət edir ki, neftin qiymətinin orta satış qiyməti Azərbaycan hökumətinin 2026-cı ildə büdcədə proqnozlaşdırdığı həddən (65 dollar) yüksək olacaq, eləcə də digər enerji, yəni qaz satışlarından daxilolmalar dayanıqlı valyuta gəlirlərini təmin edəcək. Nəticədə, manat üçün təhdidlərdən biri olan dollar tələbinin ödənilməsi problemi gözlənilmir.

**Tədiyyə balansı qənaətbəxşdir**

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanda, hələ ki, üzən məzənnə rejiminə keçirilməyib və Mərkəzi Bank da dollarla bağlı tələb artığda prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Əgər bazarda dollar sıxıntısı yaranarsa, Mərkəzi Bankın son illərdə əhəmiyyətli həcmlərdə artmış ehtiyatların bir hissəsinin valyuta hərraclarına yönəlməsi mümkündür. Bu amil isə yenə də manatın məzənnəsinin mövcud qiymət indeksi üzrə qorunub saxlanmasını təmin edir.

Yeri gəlmişkən, "The Economist" nəşri də manatın məzənnəsinin sabit qalacağına dair bir müddət əvvəl ehtimallarını açıqlayıb. Ümumilikdə, fiskal və monetar siyasət üzrə qlobal mənzərəyə baxdıqda, inflyasiyanın tədricən azalması fonunda mərkəzi banklar monetar siyasəti fərqli tempdə yumşaltmağa davam etməkdədir. Hazırkı genişləndirici monetar siyasət meyli maliyyələşmə xərclərinin azalması ilə ölkələrdə daxili tələbə müsbət təsir göstərir. Bu baxımdan mərkəzi bankların daha yumşaq monetar siyasətə keçid etməsi və iqtisadiyyatların fiskal konsolidasiyaya hazırlığı fonunda, hazırkı şərait fiskal buferlərin bərpası üçün əlverişli hesab edilir. Bu amil də milli valyuta ilə bağlı vəziyyətin əlverişliliyini göstərir.

Həmçinin, Azərbaycanın tədiyyə balansı və xarici ticarəti ilə bağlı göstəricilər kifayət qədər yaxşıdır, cari əməliyyatlar hesabında dayanıqlı profisit mövcuddur və iln sonunda, eyni zamanda, növbəti ildə tədiyyə balansının profisiti qorunub saxlanılacaq.

*E,CƏFƏRLİ*

# Təbiəti qoruyaq!

## Sağlamlığımız ekologiyanın vəziyyətindən asılıdır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

Yaşadığımız mühiti qorumaq hər kəsin borcudur. Bu gün qlobal istiləşmə, sunamilər, daşqınlar, torpaq sürüşmələri, bir sözlə, baş verən bütün təbii fəlakətlər dünyanı narahat etməkdədir. Hər gün ekoloji böhranın mənfi nəticələri ilə qarşılaşırıq: havanın və suyun çirklənməsi, heyvan və bitki növlərinin nəslinin kəsilməsi, iqlim dəyişikliyi və s. Hərdən düşünürsən ki, bəlkə bütün bunlar təbiətin bizə verdiyi dərs, insanın onu istismar etməsinə qarşı üsyanıdır?

Etiraf edək ki, bəzən təbiətdən daha çox şey qoparmağa çalışır, eyni zamanda heç nəyin fərqinə varmırıq. Həyatımızı daha firavan qurmaq üçün təbii ehtiyatlardan israfçılıqla istifadə edir, götürdüyümüzün yerini doldurmağa isə təşəbbüs göstərmirik. Nəticədə, ekoloji tarazlıq pozulur.

**Yaşıllıqların rolu vacibdir!**

Mövzu ilə bağlı “Yeni Azərbaycan” qəzetinə açıqlama verən ekoloq Rövşən Abbasov bildirib ki, ətraf mühitin mühafizəsində meşələrin, yaşıllıqların rolu ölçüyəgəlməz dərəcədə böyükdür: “Məqsədimiz təbiəti və ətraf mühiti qorumaq, təbiətin bizə bəxş etdiyi resurslardan məsuliyyətli və şüurlu istifadə üçün həll yolları axtarmaqdır. Bu istiqamətdə respublikamızda ardıcıl tədbirlər həyata keçirilib və keçirilməkdədir. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda ötən ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi mövcud problemlərin həllinə mühüm stimul oldu. Sərəncamda ölkəmizin, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi, iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunurdu. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və sabit enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.



Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarına nəqli də Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərdəndir”.

**Hava və suyun çirklənməsi...**

R.Abbasovun sözlərinə görə, bu gün ən ciddi ekoloji problemlərdən biri havanın çirklənməsidir: “Tullantıların və zərərli maddələrin atmosferə atılması tənəffüs orqanlarının xəstəliklərinə və qlobal iqlim dəyişikliyinə səbəb olur. Havanın keyfiyyəti, tozun miqdarı, yerüstü ozon, kükürd və azot oksidləri, karbon-monoksid və digər indiqatorlardır ki, bunlara hava keyfiyyəti indeksi müəyyən olunur. Hava keyfiyyəti indeksi 0-500 arası dəyişir. Əgər rəqəmlər 0-50 arasındadırsa, deməli, hava keyfiyyəti çox yaxşıdır. 50-100 arası olduqda havanın keyfiyyəti normal kimi qeyd olunur, 100-250 aralığı isə orta keyfiyyətə sahib hava şəraiti olduğunu bildirir. 250-350 arasındadırsa, pis, 250-dən sonrası isə daha pis olduğuna dəlalət gətirir.

Digər aktual problem isə suyun çirklənməsidir. Tullantı sularının sistemsiz təmizlənməsi və pestisidlərin istifadəsi suyun keyfiyyətinin pisləşməsinə, daha doğrusu, onun “ölümünə” səbəb olur. Bu problemin həll olunması üçün tullantı sularının səmərəli təmizlənməsini və su obyektləri ətrafında ekosistemlərin formalaşmasını təşviq etməyə ehtiyac var”.

**Gələcək nəsillərə ötürəcəyimiz qiymətli miras!**

Ekoloq qeyd edib ki, ekologiyamıza və yaşıl dünyamıza qayğı göstərərək, bu proseslərin fəal iştirakçıları olmalıyıq. Biz birlikdə ətraf mühitin mühafizəsi və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi ilə bağlı təşəbbüsləri dəstəkləməklə qərarların qəbuluna təsir edə və səsimizi eşitdirə bilərik.

Təmiz ekologiya və yaşıl dünya bizim faydalanmalı və gələcək nəsillərə ötürməli olduğumuz qiymətli miraslardır. Təbii sərvətlərdən məqsədyönlü istifadə, təmiz hava, su və torpağa qayğı, bioloji müxtəlifliyin qorunması bizim və gələcək nəsillərin təbiətlə harmoniyada yaşaya biləcəyi dünyaya aparan yoldur. Ekoloji problemlərin həlli əsas prioritetimiz olmalıdır və yalnız bu halda nəsillərimizin təmiz və təhlükəsiz ətraf mühitə sahib olmaq hüququnu təmin edə bilərik”.

***Səlim***

# II raund...

## ABŞ-İran danışıqları baş tutacaq?

**Bu həftənin sonu Romada ABŞ-İran danışıqlarının növbəti raundu baş tutacaq. Belə ki, Oman Xarici İşlər Nazirliyinin məlumatına görə, aprelin 13-də Məsqətdə İran İslam Respublikası ilə Amerika Birləşmiş Ştatları nümayəndələri arasında keçirilən danışıqların birinci raundunda olduğu kimi, aprelin 19-da Romada keçiriləcək danışıqların ikinci raundunda da Tehranın nüvə proqramı ətrafında yaranmış fikir ayrılıqlarının həlli ilə bağlı məsələlər müzakirə olunacaq. Artıq İtaliyanın XİN rəhbəri Antonio Tajani də bunu təsdiqləyib. Qeyd edək ki, Məsqətdə baş tutaraq danışıqlarda İranın xarici işlər naziri Abbas Araqçi və ABŞ-ın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiven Vitkoff tərəflər arasında danışıqların bir həftə ərzində davam etdirilməsi barədə razılığa gəliblər. Ağ Evin məlumatında qeyd olunur ki, Omandakı danışıqlar çox müsbət və konstruktiv keçib. Bu arada Tramp İranın nüvəsizləşdirilməsi məsələsində israrlıdır - ABŞ prezidenti jurnalistlərə son açıqlamasında bildirib ki, onun administrasiyası İrana nüvə silahı əldə etməyə imkan verməyəcək. “Mən İranın gözəl, böyük, xoşbəxt ölkə olmasını istəyirəm, lakin onların nüvə silahı ola bilməz və biz şənbə günü onlarla məsləhətləşmələr keçirəcəyik. Onlarla böyük görüşümüz var. Mən İranın çiçəklənməsini istəyirəm, lakin onun nüvə silahı ola bilməz”, - deyə Tramp vurğulayıb.**

### İran görüşdən imtina edə bilər?

Bəzi ekspertlər hesab edirlər ki, Romada ABŞ-İran danışıqlarının ikinci raundunun baş tutacağı inandırıcı görünmür. Onların fikrincə, İran rəsmiləri bu danışıqlarda iştirak etməyəcək. Maraqlıdır, əgər Tehran ABŞ-la görüşdən imtina edərsə, Vaşinqton İrana qarşı hansı sərt tədbirləri görəcək? Məsələ ilə bağlı politoloq Anar Əliyev “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, İran ABŞ-la görüşlərin Omanda keçirilməsinin tərəfdarıdır. “Keçən həftənin sonunda Məsqətdə ABŞ-la baş tutan görüşdən sonra İran çox maraqlı gediş etdi. İranın XİN rəhbəri Abbas Araqçi Moskvaya səfər edərək Prezident Vladimir Putin və XİN rəhbəri Sergey Lavrov ilə görüşdü. Görüş zamanı Araqçi həm Lavrovu, həm də Putini ABŞ-ın nümayəndəsi ilə görüşün təfərrüatları barədə məlumatlandırdı. Araqçi ABŞ-la növbəti görüşlər ərəfəsində Rusiya və Çinlə məsləhətləşmələr aparır. Buna görə də İranın manevr imkanları çoxdur. Bunu çox yaxşı başa düşən Tramp administrasiyası İranla mövcud problemlərin sərt taktikalarla deyil, diplomatik danışıqlar yolu ilə həll olunmasına çalışır. Qərb İrana təzyiqləri artıracağı təqdirdə Tehran Rusiya və Çinin yanında yer alacaq. Bu da ABŞ-ın qlobal strateji hədəflərinə qətiyyən uyğun deyil”.

### ABŞ İrana qarşı sərt tədbirlərə əl ata bilər?

“Əgər İran hakimiyyəti növbəti dəfə ABŞ-ın diplomatik təkliflərindən sui-istifadə edib öz qaranlıq planlarını həyata keçirməyə, eləcə də bilərəkdən prosesi uzatmağa çalışacaqsa, Tramp administrasiyası müəyyən ölçülər daxilində Tehrana qarşı sərt tədbirlərə əl ata bilər. Netanyahunun təkidlərinə baxmayaraq, Tramp hələ ki, İrana münasibətdə mümkün qədər səbr nümayiş etdirir. İran rəhbərliyi yaxın aylarda, bəlkə də yaxın həftələrdə nüvə məsələsində öz mövqeyində ciddi dəyişiklik etməyəcəksə, ABŞ tərəfindən Tehrana qarşı sərt addımların atılması mümkündür ,”- deyə A.Əliyev vurğulayıb.

Politoloqun sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi bitdikdən sonra Tramp Yaxın Şərqə daha çox diqqət ayıracaq. “Əgər Tramp Rusiya ilə Ukrayna arasında atəşkəs sazişinin imzalanmasına nail olarsa, o zaman o, Yaxın Şərqə, xüsusilə İran faktoruna diqqət ayıracaq. Tramp İran ətrafında həlqənin daralmasına çalışacaq. Amma İrana qarşı hərbi əməliyyatlar real görünmür”.



### İranla razılıq əldə olunarsa....

“İran hakimiyyəti elə zənn etməməlidir ki, o, sona qədər istədiyi kimi sərbəst hərəkət edəcək. Əgər İran Qərblə anlaşıb nüvənin zənginləşdirilməsi proqramından imtina edərsə, İrana qarşı sərt ritorika yumşalacaq və Qərblə İran arasında əməkdaşlıq perspektivləri açılacaq,” - deyə A.Əliyev vurğulayıb.

***Yunis ABDULLAYEV***

# Atəşkəsə gedən yol...

Yaxın zamanda ABŞ ilə Ukrayna arasında mühüm sazişin imzalanması gözlənilir. Artıq Vaşinqton Ukraynadan öz istədiyini qoparmağı bacardı. Belə ki, aprelin 18-də ABŞ və Ukrayna nümayəndələri yeraltı sərvətlərin istismarına dair saziş bağlamaq niyyətlərini göstərən memorandum imzalayıblar. Ukrayna baş nazirinin birinci müavini və iqtisadiyyat naziri Yuliya Sviridenko yerli KİV-lərə açıqlamasında qeyd edib ki, hər iki ölkə Ukraynanın genişmiqyaslı bərpasına yönələn İnvestisiya Fondunun əsasının qoyulması istiqamətində işlərə başlayıb. Onun sözlərinə görə, müvafiq saziş əhəmiyyətli investisiyalar, infrastrukturun modernləşdirilməsi və Ukrayna ilə ABŞ arasında qarşılıqlı faydalı tərəfdaşlıq üçün imkanlar yaradacaq. Qeyd edək ki, memorandumu Yuliya Sviridenko və ABŞ-ın maliyyə naziri Skott Bessent imzalayıb. Hazırda ABŞ və Ukraynanın texniki qrupları imzalanması gözlənilən sazişin üzərində işləyirlər.

### Saziş Ukraynanın maraqlarına uyğundur?

Xatırladaq ki, bu ilin fevralında Vaşinqton Ukraynada yeraltı mineral ehtiyatların istismarı üçün onun nəzarəti altında olan İnvestisiya Fondu yaratmağı təklif edib. Təbii ki, Tramp administrasiyası belə bir təklifi Ukraynanın ABŞ-a olan 350 milyard dəyərində borcunu rahat şəkildə ödəmək müqabilində irəli sürüb. Ağ Evin təklifinə görə, rəsmi Kiyev mineral ehtiyatların istismarından əldə ediləcək gəlirlərin üçdə ikisini fonda verməlidir. Fondun həcmi isə 500 milyard dollar civarındadır. Ekspertlər hesab edirlər ki, fondun büdcəsinə yığılacaq vəsait həm Ukraynanın yenidən qurulmasına, həm də Kiyevin ABŞ-a borcunun ödənilməsinə sərf olunacaq. Eyni zamanda fond ilə bağlı saziş əsasən kommersiya xarakteri daşıyır. Bir müddət bu saziş üzrə danışıqlar dalana dirənsə də, aprelin əvvəlində yenidən intensivləşib. “New York Times” -ın məlumatına görə, artıq danışıqlar yekunlaşmaq üzrədir. Bu arada Vaşinqton Ukraynanın dövlət borcunu 300 milyarddan 100 milyard dollaradək azaltmağa razılaşıb.

### Əgər saziş imzalanarsa, bu, atəşkəsə nə dərəcədə təsir göstərəcək?

Ən maraqlısı isə budur ki, sənədin yeni layihəsində Ukraynaya təhlükəsizlik zəmanətləri ilə bağlı heç bir qeyd yoxdur. Belə bir halda Ukraynada yaxın aylarda atəşkəsin elan olunub-olunmayacağı sual altındadır. Amma bəzi ekspertlər bunun atəşkəsin təmin olunmasına aparan müvafiq yol olduğunu vurğulayırlar. Politoloq Tural İsmayılov “Yeni Azərbaycan” qəzetinə şərhində məsələ ilə bağlı fikirlərini bölüşüb - o, qeyd edib ki, ABŞ ilə Ukrayna arasında mineral ehtiyatlarla bağlı sazişin imzalanacağı təqdirdə bir müddət sonra atəşkəsin elan olunması mümkün görünəcək. “Nəzərə almaq lazımdır ki, Ukrayna ABŞ-ın təzyiqləri və basqıları fonunda bu sazişə razılıq verib. Doğrusunu desək, Vaşinqton Rusiya-Ukrayna müharibəsini tez bir zamanda bitirmək üçün belə bir addımı atıb. O ki qaldı sazişin imzalanmasının yaxın zamanda atəşkəsə yol açıb-açmayacağına, qeyd edim ki, bu, atəşkəsə müsbət təsir göstərəcək. Çünki Vaşinqton qətiyyən istəməz ki, onun investisiya yatıracağı ölkədə müharibə davam etsin. Ukraynada ABŞ şirkətlərinin və investorlarının fəaliyyət göstərəcəyi müddətdə Rusiyanın bu ölkəyə hücum əməliyyatları qeyri-mümkün olacaq. Rusiya buna cəhd etməyəcək. Moskva bunu çox yaxşı başa düşür. Hesab edirəm ki, əgər sazişin imzalanması baş tutacaqsa, Rusiya ilə Ukrayna arasında qısa bir zamanda atəşkəs elan olunacaq. Bu da öz növbəsində münaqişənin uzunmüddətli dondurulmasına gətirib çıxaracaq”.



### Tramp Rusiyanı atəşkəsə razı salmaq üçün sərt taktikalara əl ata bilər?

T.İsmayılov vurğulayıb ki, hazırda atəşkəs Moskvanın özünə də sərf edir. “Bu müharibə Ukrayna üçün çox ağır dağıdıcı nəticələrə səbəb olub. Amma eyni zamanda Rusiya da xeyli canlı, hərbi texnika və maliyyə itkilərinə məruz qalıb. Bu baxımdan Moskva da atəşkəsə razıdır. Əlbəttə, Kremlin qısa müddət ərzində atəşkəsə razı olacağı inandırıcı görünmür. Çünki Moskva Kiyevin onun diktə etdiyi şərtlər əsasında atəşkəs sazişinin imzalanmasını istəyir. Sözsüz ki, Rusiya rəhbərliyi atəşkəsə razı olmazsa, ABŞ-Rusiya münasibətlərində yenidən gərginlik yaranacaq. Amma bir məqama da diqqət yetirmək lazımdır ki, Tramp administrasiyasının Rusiya ilə danışıqlar aparmaq imkanları kifayət qədərdir. Bayden administrasiyasından fərqli olaraq Tramp administrasiyası dövründə Vaşinqton Moskva ilə danışıqları davam etdirəcək. Moskva atəşkəsə razılıq verməsə belə, Rusiya ilə ABŞ arasında ciddi qarşıdurma baş verməyəcək”.

***Yunis ABDULLAYEV***

# Sevinc, ümid, yenilənmə...

## 8 ildən sonra maraqlı təsadüf!

Xristian dünyası bu il Pasxa bayramını aprelin 20-də qeyd edirlər. Bu bayram bütün xristianlar üçün müqəddəs bir həftədir. Səkkiz ildən sonra pravoslav və katoliklər Pasxanı eyni gündə-birgə qeyd edirlər. Onlar sonuncu dəfə 2017-ci ildə Pasxanı birlikdə qeyd etmişdilər.

Bu nadir hadisə, katoliklərin istifadə etdiyi Qreqorian və pravoslavların istifadə etdiyi Yulian təqvimləri arasındakı fərqliliklər səbəbindən baş verir. Lakin 2025-ci ildə 2 milyarddan çox inanclı insan bu müqəddəs bayramı birgə qeyd edərək, xristianlıq tarixində mühüm bir anı paylaşacaq.



## Pravoslavlar və katoliklər Pasxanı birgə qeyd edəcək

Pasxa, İsa Məsihin çarmıxa çəkildikdən sonra üçüncü gün dirildiyini simvolizə edir və ölüm üzərində həyatın, pislik üzərində yaxşılığın, qaranlıq üzərində işığın qalib gəlməsini təmsil edir. Pasxanın dəqiq tarixi, bahar ekinoksundan (21 mart) sonra gələn ilk tam ay işığından sonra gələn bazar günü müəyyən olunur. Pravoslav Pasxasının ən erkən tarixi 4 aprel, ən gec tarixi isə 8 may ola bilər.

Bu müqəddəs bayrama hazırlıq, 2025-ci ildə 3 martdan 19 aprelə kimi davam edən Böyük Oruc müddətində baş verir. Bu müddət ərzində inananlar özlərini qida məhdudiyyətinə, daha çox dua etməyə, kilsə mərasimlərinə qatılmağa və yaxşı işlər görməyə həsr edirlər.

**İlk Pasxa...**

Qədim yəhudilər ilk Pasxanı İsa peyğəmbərin mövludundan 1500 il əvvəl israillilərin Musa peyğəmbərin başçılığı ilə Misiri tərk etməsi münasibətilə qeyd ediblər.

Əhdi-ətiqdə Pesaxa-Pasxa yəhudi xalqının Misir köləliyindən qurtulduğunu göstərir. "Pesaxa" sözü qədim yəhudi dilində "çıxma", "qurtulma" deməkdir.

Əhdi-Cədid Pasxası isə əvvəlcə İsa Məsihin ölümü haqqında xatirəyə həsr edilib. Bu bayramın vaxtı və mərasimləri xristian kilsəsi tərəfindən II əsrdə müəyyən edilib. V əsrdən etibarən isə indi qeyd edilən bayram ritualları formalaşıb.

**Pasxa süfrəsinin əsas elementləri**

Dünyanın müxtəlif yerlərində bir-birindən fərqli Pasxa adətləri olsa da, kilsə ayinləri, Pasxa bayramlaşması ümumi motivlərdir.

Slavyanlarda yumurta döyüşdürülməsi, Pasxa dovşanı, Pasxa oyun və festivalları kimi ənənələr də var ki, bu ənənələr də xristianlarla yanaşı, qeyri-xristian toplular arasında da geniş yayılıb. Ənənəyə görə, pravoslavlar cümə axşamı günü kuliç bişirir, axşam "pasxa" adlı yemək hazırlayır, şənbə günü onları kilsəyə aparır, şənbə günündən bazar gününə keçən gecə isə Pasxanın və İsanın Dirilməsi bayramının başlanmasını bildirən Xaç yürüşü edirlər. İsa peyğəmbərin Dirildiyi Müqəddəs Gün isə hamı pasxa süfrəsi arxasında əyləşir, bir-birini pasxa və kuliçə qonaq edir, yumurta döyüşdürür və "İsa Dirildi!" kəlməsi ilə təbrik edir. Küçələrə çıxır, qarşılarına çıxan hər kəsi qucaqlayırlar.

Bütün dünyada olduğu kimi, Azərbaycanda yaşayan xristianlar da bu müqəddəs bayramı hər il təntənə ilə qeyd edirlər. İsa Allahın peyğəmbəri olaraq müsəlman dünyası üçün də mübarək bir şəxsiyyətdir. Onun adı "Quran"da dəfələrlə anılıb. Müsəlmanlar öz övladlarına Musa və İsa adlarını məmnuniyyətlə verirlər. Özünü insanların günahlarından qurtulması naminə qurban etmiş İsa peyğəmbər əslində bütün bəşəriyyətin xilaskarıdır. Sülhü, barışı, birliyi təmsil edən istənilən bayram isə bəşəri sərvətdir.

Pasxa - sevinc, ümid və ruhani yenilənmə vaxtıdır. 2025-ci ildə xristianlar illər boyu davam edən təqvim fərqliliklərini aradan qaldıraraq, bu müqəddəs bayramı birgə qeyd etmək imkanı əldə etdilər. Ümid edək ki, bu işıqlı bayram dünyaya daha çox sevgi, yaxşılıq və birlik gətirəcək...

*Yeganə BAYRAMOVA*



# NATO üzünü Türkiyəyə tutur...

## Alyans üzvləri mühüm müzakirələrə başlayır

Qərb dünyası yeni təlatümlərlə üz-üzədir. Onillərdir ki, Avroatlantik zonanın əsas müdafiə çətiri sayılan NATO-da fikir ayrılıqları günü-gündən genişlənir. Xüsusilə, Donald Trampın hakimiyyətə gəlişindən sonra ABŞ-Avropa münasibətlərindəki gərginlik hərbi müdafiə sektorunu da əhatə etməyə başlayıb. Rəsmi Vaşinqton keçmiş administrasiyanın bütün sahələrdə olduğu kimi müdafiə sektorundakı siyasi xəttini düzgün hesab etmir. Ağ Evin fikrincə, digər NATO ölkələri, xüsusilə Qərbi Avropa özünün müdafiə xərcləri üçün lazımi maliyyəni ayırmır. Eyni zamanda, Ukrayna müharibəsinə baxış bucağı dəyişmək üzrədir. ABŞ rəsmi Kiyevə yardım məsələsində də müttəfiqləri ilə uzlaşa bilmir. Bunun nəticəsidir ki, artıq aylardır ard-arda NATO-nun fərqli ünvanlarda müxəlif formatlarda toplantıları baş tutur. Xarici işlər, müdafiə nazirləri səviyyəsində baş tutan bu görüşlərdə məsələlərdən çıxış yolları axtarılır.

**Qeyri-rəsmi toplantı...**

Növbəti toplantı isə NATO-nun əsas ikinci ölkəsində - Türkiyədə keçiriləcək. Belə ki, NATO-nun mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, alyans üzvlərinin xarici işlər nazirləri mayın 14-15-də Antalyada qeyri-rəsmi görüş keçirəcəklər. "14-15 may tarixlərində Antalyada NATO-nun Baş katibi Mark Ruttenin sədrliyi ilə xarici işlər nazirlərinin qeyri-rəsmi görüşü keçiriləcək", - məlumatda bildirilib. Alyans hələlik görüşün gündəliyinin təfərrüatlarını açıqlamır. Lakin aprelin 3-4-də NATO nazirlərinin Brüssel görüşünün nəticələrinə əsasən, bir sıra mənbələr bildirirdilər ki, alyansın iyulda Niderlandda keçiriləcək sammitinə qədər XİN başçılarının əlavə qeyri-rəsmi görüşü çağırılacaq. Bu görüş hərbi xərclərin artırılaraq ÜDM-in 2 faizdən 5 faizə çatdırılması planları üzrə kompromis axtarışlarına həsr olunacaq. Ukraynaya yeni silah tədarükü məsələsi də müzakirə ediləcək.

**Hərbi xərclərin bölüşdürülməsi...**

Qeyd edək ki, NATO-nun müdafiə xərclərinə ayrılan vəsaitin bölüşdürülməsi ilə bağlı narazılığı məhz ABŞ etmişdi. Ağ Ev bildirmişdi ki, Avropa illərdir ABŞ-ın hesabına özünün müdafiə immunitetini formalaşdırır. Qeyd edək ki, hazırda NATO-nun hərbi xərclərinin bölünməsi iki əsas istiqamətdə həyata keçirilir: Bunlardan biri Birgə Büdcələrdir (Direct Contributions) ki, bu, NATO-nun ortaq strukturlarını (məsələn, qərargahlar, infrastruktur layihələri, bəzi əməliyyatlar) maliyyələşdirmək üçün üzv ölkələrin ödədiyi vəsaitlərdir. Bu xərclər üzv ölkələr arasında iqtisadi gücünə əsasən proporsional şəkildə bölüşdürülür. 2023-cü ilin məlumatına əsasən, ABŞ bu ortaq büdcənin təxminən 16,3 faizini ödəyir. Bu birgə büdcələr illik olaraq 3-4 milyard avro civarındadır, bu isə NATO ölkələrinin milli müdafiə büdcələri ilə müqayisədə çox kiçik hissədir. Digəri isə, Milli Müdafiə Büdcələridir (Indirect Contributions) ki, əsas yük məhz budur. NATO üzvləri öz milli müdafiə xərclərini artırmaqla NATO-nun ümumi gücünə töhfə verirlər. 2014-cü il Uels Sammitində qəbul edilən qərara görə üzv ölkələr ÜDM-nin ən azı 2 faizini müdafiəyə sərf etməyi öhdələrinə götürüblər. 2024-cü ilə qədər isə 22 ölkə bu hədəfə çatıb. ABŞ NATO daxilində müdafiə xərclərinin təxminən 70 faizini öz üzərinə götürür. 2023-cü ildə ABŞ 860 milyard dollar pul ayırıb. Bunun qarşılığında isə Aİ-nin aparıcı ölkələri sayılan Almaniya 66 milyard dollar, Fransa 58 milyard dollar ödəyib.

NATO-nun 2025-ci il üçün hərbi xərclərinin üzv ölkələr arasında bölüşdürülməsinə gəldikdə isə, birinci hissəyə 483,3 milyon avro, hərbi Büdcəyə isə 2,37 milyard avro ayrılıb. ABŞ-ın buradakı payı 968 milyard dollar nisbətindədir. 2024-cü ildə Avropa Kanada ilə birgə 380 milyard dollar müdafiə xərci ayırıb ki, bu da ÜDM-in 2 fazini təşkil edir və Ağ Evi razı salmır.

**ABŞ pulla da silah satmır...**

Digər bir mövzu isə Ukrayna məsələsidir ki, burada da mühüm anlaşmazlıqlar mövcuddur. Ukraynanın alyans üzvü olmaq istəyi birmənalı şəkildə Vaşinqton tərəfindən qəbul edilmir. Paralel olaraq isə hətta Tramp pul müqabilində belə Ukraynaya silah verməkdən imtina edir. "Bild" qəzetinin yazdığına görə, ABŞ prezidenti Donald Tramp silah tədarükündən pul qazanmaqdan daha çox Rusiya prezidenti Vladimir Putinlə danışıqlarda maraqlıdır. Aprelin 9-da Vladimir Zelenski deyib ki, o, ABŞ prezidenti Donald Trampa Kiyevin 10 "Patriot" hava hücumundan müdafiə sistemi almağa hazır olduğunu deyib: "Mən ona telefonda dedim ki, bizə ən azı 10 "Patriot" hava hücumundan müdafiə sistemi verin. Bizim hazır olduğumuz çoxlu müxtəlif formatlar və alətlər var. Biz müvafiq paket üçün 30 milyard, 50 milyard dollar tapmağa hazır idik".

Avropa isə öz növbəsində Ukraynaya münasibətdə fərqli mövqe tutur. Hətta Fransa və digər ölkələr Ukraynaya həm maddi, həm də silah yardımı edirlər. Bu isə Alyans daxilində fikir ayrılıqlarını dərinləşdirir...

**Ankara Alyans üzvlərinin son "ümid" yeridir...**

Məsələnin ən cəlbedici məqamı isə son dövrlərdə alyans daxilində Türkiyənin nüfuzunun get-gedə daha da artmasıdır. Qeyri-rəsmi toplantının da Antaliyada keçirilməsi təsadüfi sayıla bilməz. Belə ki, Aİ Ankaranı özü üçün son ümid yeri sayır. Həm blok daxilindəki yeri və nüfuzu, həm də ABŞ ilə münasibətləri və təsiretmə gücü Türkiyəni diqqət mərkəzinə gətirir. Bir müddət öncə İsrailin Baş naziri Netanyahunun ABŞ-a səfəri çərçivəsində keçirilən görüşdə ABŞ prezidentinin Türkiyə və onun lideri ilə bağlı müsbət mesajları da bunu deməyə əsas verir.

Bu amil Türkiyənin də əlini gücləndirir. Yeni dövrdə həm yerləşdiyi bölgənin, həm də ümumən Yaxın Şərqin ən mühüm siyasi-hərbi aktoruna çevrilməyi hədəfləyən Ankara üçün belə bir status qazanması vacib irəliləyişdir. Avropa kontingenti anlayır ki, hazırkı vəziyyətdə Türkiyənin hərbi potensialı olduqca böyükdür. Bu müasir və olduqca effektiv hərbi potensial isə indiki məqamda olduqca mühüm amildir. İstər Şərqdə, istərsə də Qərbdə gedən proseslər onu göstərir ki, Türkiyə alyansın Avropa qitəsindəki əsas lokomotividir. Eyni zamanda, Türkiyə həm də siyasi cəhətdən keçmiş Qərb koalisiyası üzvlərindən fərqlənir. Ankara demək olar ki, bütün dövlətlərlə eyni məsafədə dayanır - xüsusilə, Ukrayna müharibəsinə münasibətdə tutduğu barışdırıcı mövqe münaqişənin həlli istiqamətində mühüm perspektiv yarada bilər. Bu nöqteyi-nəzərdən də NATO "üzünü" Türkiyəyə tutur...

*P.İSMAYILOV*

# "Olimpin dərman çiçəyi"...

## 19 aprel Novruzgülü günüdür



Soyuq havalardan sonra torpağın altından baş qaldıran al-əlvan çiçəkli novruzgülü baharın müjdəçisi hesab olunur. El arasında ona novruzçiçəyi də deyirlər. Novruzgülü zanbaqlar fəsiləsinin və zanbaq cinsinin bir növüdür. Yeri gəlmişkən, aprelin 19-da dünyanın bir çox ölkəsində Novruzgülü günü qeyd edilir. Bu gün ilk dəfə 1984-cü ildə İngiltərədə qeyd edilib.

İngilislər novruzgülünə xüsusi münasibət bəsləyirlər. Bu ölkədə yayılan rəvayətə görə, evin ətrafında əkilmiş novruzgülü təkcə pis ruhlardan deyil, həm də bütün fəlakət və bədbəxtlikdən qoruyur. Orta əsrlərdə bu çiçək paklığın rəmzi hesab edilirdi.

**"İflic otu"**

Qədim dövrlərdən etibarən novruzgülündən müalicə məqsədilə də istifadə olunub. Məsələn, Yunanıstanda novruzçiçəyinə "Olimpin dərman çiçəyi" adı verilib. Qədim həkimlər novruzgülü ilə iflici müalicə etdiklərinə görə onu "İflic otu" da adlandırırdılar.

**20 növü var**

Hazırda novruzgülü planetin müxtəlif yerlərində bitir, onun təxminən 20 növü var və demək olar ki, hamısı Qırmızı Kitaba düşüb. Ən populyar növü ağ novruzgülüdür. Bu çiçəyin yunan, Bizans, Qafqaz və digər növləri də var. Hollandiyada bu gül giasint və zanbaq kimi məşhurdur.

**A və C vitaminləri ilə zəngindir**

Xalq təbabətində novruz çiçəyinin dəmləmə, bişirmə və şirəsi bronxit, astma, qəbizlik, yuxusuzluq, öskürək, başgicəllənmə, qıcolmalar, iflic, ümumi zəiflik zamanı istifadə olunur. Tərkibindəki saponinlərin hesabına öskürək əleyhinə tərqovucu və sidikqovucu təsir göstərir. Həmçinin C və A vitaminləri ilə zəngin olduğuna görə, həmin vitaminlərin çatışmazlığı zamanı istifadə olunur.

Novruzçiçəyi preparatlarının istifadəsində əks göstəriş yoxdur. Lakin bəzi xəstələrdə ona qarşı yüksək dərəcədə həssaslıq olur. Onunla təmas zamanı həmin xəstələrin dərisində güclü qaşınmalar yaranır və qabarmalar əmələ gəlir.

**Qızılgüllə əbədi sevgilidir...**

Azərbaycan dağlarında novruzgülü ən çox üç rəngdə bitir: göy, bənövşəyi və ağ. Folklorumuzdakı əfsanəyə görə, novruzgülü ilə qızılgül əbədi sevgilidirlər. Novruzgülü yazın əvvəlində, qızılgül isə iki ay sonra açılır. Ona görə onlar bir-birini görə bilmirlər. Azərbaycan folklorunda belə bir inanc var ki, bu iki gülü bir-birinə çatdıran kimsə behiştlik olacaq. Novruzgülü ilə qızılgülün sevgili olduqları xüsusi bir inanca söykənir.

*Yeganə BAYRAMOVA*

# ABŞ Suriyadan geri çəkilir

## Türkiyə Yaxın Şərqdə güc mərkəzinə çevrilir

Yaxın Şərqdə, xüsusilə Suriya məcrasında yeni siyasi proseslər baş verir. Qeyd edək ki, ABŞ Suriyadan geri çəkilmək qərarına gəlib. Bu da yaxın zamanda Suriyada yeni geosiyasi güc mərkəzlərinin meydana çıxacağını deməyə əsas verir. Ekspertlər hesab edirlər ki, bundan sonra Suriyada proseslərin nizamlanmasında yalnız region dövlətləri öz sözünü deyəcək...

**ABŞ qoşunları Suriyanı tərk edir**

ABŞ-ın Suriyadakı hərbi komandanlığı Deyr əz-Zor əyalətindəki Koniko qaz yatağı ərazisindəki hərbi bazada yerləşdirilən xüsusi təyinatlı qüvvələri geri çəkməyə başlayıb. "Sky News" telekanalının məlumatına görə, amerikalı hərbçilərin karvanı Suriyanın şərqində yerləşən obyektdən ABŞ-ın böyük bazasının yerləşdiyi İraq Kürdüstanına yollanıb. Artıq 200-dən çox maşın bazanı tərk edib. Geri çəkilən qüvvələr Ərbilə istiqamət alıb. Pentaqon rəsmiləri israilli həmkarlarına məlumat veriblər ki, Birləşmiş Ştatlar iki ay ərzində öz qoşunlarını Suriyadan mərhələli şəkildə çıxarmaq niyyətindədir.

Xatırladaq ki, Suriyada 2015-2018-ci illər ərzində kürdlərin nəzarətində olan ərazilərdə 9 Amerika hərbi bazası yaradılıb. Amerikalı hərbiçilər ölkənin Hələb, Deyr əz-Zor, Rakka və Həsəkə əyalətlərində, həmçinin İraq və İordaniya ilə həmsərhəd Ət-Tanf ərazisində yerləşirlər. Bu bazalarada Suriya Demokratik Qüvvələrinin (SDQ) kürd birləşmələrinə dəstək verən 2200 amerikalı əsgər yerləşdirilib.

**ABŞ-ın Suriyadan çıxması nəyin göstəricisidir?**

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Ziferoğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ABŞ-ın Suriyadan qoşunlarını çıxarması ilk növbədə regional siyasətdə prioritet dəyişikliklərlə əlaqədardır. "ABŞ son illərdə diqqətini Çinlə rəqabətə, Hind-Sakit okean regionuna və Rusiya ilə münasibətlərin aydınlaşdırılmasına yönəldib. Yaxın Şərq Vaşinqton üçün önəmli olsa da, bəzi məqamlarda indiki geosiyasi reallıqlarda prioritetlər sırasında müəyyən yerdəyişmələr etməyi zəruri edir. Digər məqam Trampın seçkiöncəsi verdiyi vədlərlə dolayısı ilə əlaqədardır. ABŞ maksimum dərəcədə



digər bölgələrdəki hərbi mövcudluğunu və dolayısı ilə bununla bağlı xərclərini yenidən nəzərdən keçirir. Unutmayaq ki, ABŞ ictimaiyyətində və siyasi elitasında xarici münaqişələrə qarşı narazılıq artır. Uzunmüddətli hərbi iştirak və onun maliyyə yükü belə qərarlar verməyə vadar edir". Ekspertin sözlərinə görə, yaxın zamanda ABŞ-ın Yaxın Şərqdə Türkiyə, Səudiyyə Ərəbistanı və İsrail ilə əməkdaşlığı daha da möhkəmlənəcək: "ABŞ bəzi regionlarda birbaşa hərbi mövcudluq əvəzinə, regional müttəfiqlərə, xüsusilə də İsrail, Türkiyə və Səudiyyə Ərəbistanı ilə birgə fəaliyyətə çox məsuliyyət vermək strategiyasına keçir. Bu, həm də "yerli güclərlə balans" yanaşmasıdır. Amerikanın yeni rəhbərliyinin Suriyadakı proseslərdə Türkiyənin bir müttəfiq olaraq nəzarətini gücləndirməkdə maraqlı olması, eləcə də İsrail-Türkiyə münasibətlərinin normallaşmasını istəməsi hazırda əsas məqamlardır.Nəzərə almaq lazımdır ki, Suriya ərazisində Rusiya, İran və ABŞ maraqları toqquşur. Vaşinqton üçün bu riskli sahədə mövcudluğunu davam etdirmək həm siyasi, həm də hərbi baxımdan çətinləşib".

**Yaxın Şərqdə proseslər necə inkişaf edəcək?**

"Bu, müəyyən mənada müxtəlif güclər arasında boşluq uğrunda mübarizəyə təkan verə bilər. ABŞ-ın çıxması ilə regionda güc boşluğu yaranır. Bu boşluğu doldurmaq üçün Rusiya, İran, Türkiyə və hətta Çinin müəyyən təsir cəhdləri güclənəcək," - deyə bildirən V.Ziferoğlu vurğulayıb ki, İran son zamanlarda İraq-Suriya-Livan-Yəmən dəhlizində ciddi zərbələr alsa da, hələ də müəyyən qədər öz təsirini saxlamaqdadır: "Şübhəsiz ki, Tehran bu mənada manevr imkanlarını artırmağa cəhd göstərə bilər. Lakin bu nə dərəcədə nəticəli olacaq?". Ekspert bildirib ki, ABŞ-ın əsas müttəfiqlərindən olan YPG/SDF bu prosesdən təbii ki, təsirlənəcək. "Onlar həm Türkiyə, həm də Suriyanın yeni hökuməti ilə dil tapmaq məcburiyyətində qalacaqlar. Bundan əlavə, ABŞ-ın çəkilməsi Bəşər Əsədə və onun müttəfiqləri - Rusiya və İrana daha sərbəst hərəkət imkanı verir. Bu, rejimin Suriya ərazisində nəzarəti bərpa etmək üçün müəyyən cəhdlər etməsinə şərait yarada bilər. Bir müddət bundan əvvəl Suriyada yeni hakimiyyətə qarşı Əsəd yönlü qüvvələrin təşkil etdikləri çevriliş cəhdinin qarşısının alınması buna əyani sübutdur".

**Türkiyə Yaxın Şərqdə daha da möhkəmlənəcək?**

Ekspert hesab edib ki, ABŞ-ın çıxması Türkiyə üçün həm çətinliklər, həm də strateji fürsətlər yaradır. "İlk növbədə Türkiyənin hərbi və siyasi manevr sahəsi genişlənir. ABŞ-ın yoxluğu Türkiyəyə Suriyanın şimalında daha sərbəst hərəkət imkanı verir. Ankara, "təhlükəsizlik zonası" konsepsiyasını daha rahat reallaşdıra bilər. Eyni zamanda Türkiyə həm Rusiya, həm İran, həm də Qərblə danışıqlar aparan nadir güclərdən biridir. ABŞ-ın geri çəkilməsi Ankaranın bu balanslaşdırıcı rolunu daha da önə çıxaracaq. Bir məqamı da əlavə edim ki, qardaş ölkə eyni zamanda logistik və enerji qovşağı kimi möhkəmlənəcək. Türkiyə artıq Şərqlə Qərb arasında mühüm keçid ölkəsidir. Yaxın Şərqdəki yeni siyasi düzən bu statusu daha da gücləndirir və dayanıqlı edir". Lakin V.Ziferoğlu Türkiyə üçün müəyyən risklərin olacağını da bildirib: "Yeni şərait Ankara-Moskva-Tehran üçbucağında rəqabəti sərtləşdirə bilər. Xatırlatmaq istərdim ki, xüsusilə İdlib, Tel-Rifat və Kobani ətrafında maraqlar toqquşur. Və bu bölgələrlə bağlı hələ də müəyyən narahatlıqlar mövcuddur".

*Yunis ABDULLAYEV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





ŞƏNBƏ ÜÇÜN NƏZM







# ZƏNGƏZURDA DOĞULDUM...

### HƏSRƏT

Bir səhər oturub yol maşına
Qəlbimdə həsrətin, ümidin, şübhən...
Kəndimiz görünən gedik başına,
O nəğməli yurda uçacağam mən!

Ensiz dağ yolunda düşüb maşından,
Salam verəcəyəm daşa, qayaya.
Kiçik kənd çayına çatdığım zaman
Dünya mat qalacaq səsə, haraya.

Şər düşəcəyən Araz boyunca
Bir tanış ünvana,
bir doğma ada.
Belə gəzəcəyəm yollar boyunca
Sellimi, əhli-kef, payı-piyada!

Sonra evimizə baş alacağam,
Hardasa bir qərib şimşək çaxacaq,
Min yol dolacağam,
boşalacağam.
Göz yaşım qəlbimə axacaq ancaq!

Uşaqlar sevinclə qarşılar məni:
"Əmi, o körpüdən ehtiyatla keç..."
Sonra görəcəklər bu "qonaq əmi"
Şəhər adamına oxşamayır heç.

Bir ağsaqqal qoca tanıyar, durar;
(İllər qəmətini yaman əyibdir)
- Qaçın muştuluğa,
Haydı, uşaqlar,
Rəhmətlik Xuduşun oğlu gəlibdir!

Anamın gözündə yaş görünəcək,
Hönkürtümü zorla saxlayacağam.
Yenə Leyli xala asta dinəcək,
Kövrək ürəkləri "dağlayacağam".

Qoca itimiz də haray salacaq,
Dörd yanımda gəzib-dolanacaq hey!..

### DİDƏRGİNLƏR

Küləkli çöllərdə, qarlı havada
Kəsə çığırları gəzən tapılmaz.
Göz yaşları qalan isti yuvada
Təndirlər üşüyər -
Çörək yapılmaz.

Qabağı gah duman, gah da çən kəsər,
Ağrılar üz tutar ümidə sarı.
İgidlər hirsinin başını kəsər,
Yorğun izdihamlar yorar yolları.

Düşərlər taleyin uzaqlığına,
Kimsədən bir qurtum su uman olmaz,
Fikirlər dirənər kədər dağına,
Gözlər od püskürər,
yalanı olmaz!

İzlər səpildikcə palçığa, qara
Sorar ürəkləri susuzluq, bürkü.
Hələ xəbərin yox, a bəxti qara,
Vətəndən böyükdür Vətənin yükü.

Hara üz tutsa da ayaqlar, əllər...
Ürəklər nisgillə, həsrətlə dolu.
Qayıdar ildırım sürəti ilə
Vətənə qayıdan qorxulu yolu.

Qoyarlar tövlədə atı, yəhəri...
Xeyri qabaqlayar hər addımda şər,
Bizim bu günlərin didərginləri
Gözümün önündə tarixə düşər.

Nə gözlər bu axşam, bu gecə, sabah?
İnsan dərd əlindən saçını yolar.
Bu əsrin sonunda, Allah, ay Allah,
Vətənin yolu da qorxulu olar?!

Bu da bomboş şəhər,
sarımtıl gündür...
Gəzməyə çıxarlar qürbət ölkəni:
Vətən
lap axırda... ölmək üçündür,
Yoxsa ölməyə də qoymurlar səni!

Məzarlar uçunar qəm-möhnət ilə:
Pirlər gözlərinin yaşını silər,
Xalqın təsəllisi gəlsə də dilə,
Didərgin dərdini
didərgin bilər!
Sozalar ömür də,
Sozalar gün də,
Zülmət zaman-zaman ayaqlar yeri,
Yalanmış sən demə, bu zülm önündə
Uzaq Afrikanın didərginləri.

Düşmənin gizlənib düşmən dalında,
Bu daş hansı dağdan qopub sürüşüb?
Bizim bu günlərin qovğalarında
Haqq, ədalət özü didərgin düşüb.
***1989***

### MIĞRI

Uca dağlarında şırşır bulaqlar,
Ceyranlı, cüyürlü gözəl oylaqlar...
Qəlbim hara getsə səni soraqlar -
Zəngəzur yurdunun tərları Mığrı.

Tağəmir yaylağın, Xəllərə dağın,
Aldərə dağların, Kazım bulağın...
Sənin hər obadan gəlir sorağın -
Dadlı meyvələrin loğmanı Mığrı.
Yayda qar istəsən Ələngəzə bax,
Lehvazdan çiçək dər, öz saçına tax,
Ən ləzzətli üzüm Lökdədir ancaq,
Könlümün öz dağı, aranı Mığrı.

Hələ Maralzəmi çıxmış yadımdan,
Dinir təpələrdə o Rəhim çoban.
Gözüm ayrılmayır köksündən bir an,
Dolanmaq istərəm hər yanı, Mığrı.

Yayda bağlardadır qış qarın sənin,
Deyir alma, üzüm, yay narın sənin,
Gözəldir payızın, baharın sənin,
Kəkliktək qızların məkanı Mığrı!

### MIĞRI ÇAYI

Çoxdan bura düşməmişdi
İzim, yolum, Mığrıçayı.
Bu yay gəldim, cənnət oldu
Sağım, solum, Mığrıçayı.

Sahillərini dolandım,
Uşaqlığıma boylandım,
Gah sevindim, gah da yandım,
Aman, zalım Mığrıçayı.

Qayalar fikrə dalıbdır -
Arxlar bir az sozalıbdır.
Suyun niyə azalıbdır,
Qadan alım, Mığrıçayı?!

Harayla günəşi, ayı,
Ötən hər payızı, yayı!
İstəyirəm ömrüm boyu
Burda qalam, Mığrıçayı.

Qəlbim içi - oyum-oyum,
Baxışlarım - duyum-duyum.
Sən quruma, mən quruyum,
Qurban olum, Mığrıçayı!

### GƏRƏK KƏNDİMİZDƏN ÇIXMAYAYDIM HEÇ

Gərək kəndimizdən çıxmayaydım
heç -
İndi bir külfətin bal arısıydım.
Beş babat kitabım çıxmazdı, nə qəm -
Bir elin dərdinə mən yarasaydım!

Gərək çıxmayaydım kəndimizdən
heç -
Əkəydim qap-qara öz torpağımı,
Gərək yandıraydım öz çırağımı,
Gərək böyüdəydim çiçəklərimi,
Qucaqlayaydım öz küləklərimi,
Gəzəydim səllimi çovğunda, qarda,
Beşi mənə baxıb qalardı orda -
Beş çinar artardı yol qırağında...
Təki ömrün-günün bu sərt çağında
Vəfalı qalaydım babam qalayan,
Atam yandırdığı ocağa, oda.
Mənə o töhfəni vermişdi zaman,
Mən də öz əlimlə qoydum gör har-
da?..

Deyirlər, o yerlər mən görən deyil,
Dəyişib hər fəsil, dönüb ilbəlil.
Əkirlər - göyərmir o nağıl torpaq,
Sönüb birdəfəlik o sönməz ocaq,
Qızdıra bilməyir onu yad odu,
Natanış nəfəsi, natanış adı.
Susubdur o yellər, o küləklər də,
Açılmır o güllər, o çiçəklər də...
Neçə kənd, neçə yol batıbdır yasa,
Göylər şivən edir indi hardasa...

Gərək çıxmayaydım
kəndimizdən heç,
Çapa verməyəydim beş-on şeirimi,
Özüm isidəydim öz nəfəsimlə
Öz doğma yurdumu, doğma yerimi.
Gərək öz dağımın yelli sazında,
Gərək öz bağçamın ilkin yazında
Axaydı üzümə alnımın təri,

Onda itərdimi babamın qəbri,
Onda çatlardımı atamın qəbri?

Gəzdim çox diyarı, gəzdim çox yanı,
Mənsiz də kitab çox, naşirlər vardı,
Bu böyük sənətin nəhəng meydanı
Mənsiz də tünlükdür,
Mənsiz də dardır...

Gərək kəndimizdən
çıxmayaydım heç.

### MARALZƏMİ

Şiş buynuzlu dağlarında izlərim qaldı
Yellər, sellər çox çarpışdı,
poza bilmədi.
Min bir rəngli yuxu gördüm, yollar
saraldı,
El yığışdı, bu yuxumu yoza bilmədi.

Hələ adın düşməyibdir bir xəritəyə -
Ürəyimdə çox arzumun başı ağardı.
Onda... qara qayaların boylanan göyə,
Şəvə kimi saçlarıma ağ qar yağardı.

Sevgilər var - çiçək kimi açılar, solar,
Mən qırx ildir açıqlamışam,
sola bilmirəm,
Öz yurdunu beşcə gündə unudanlar
var,
Otuz ildir mən şəhərli ola bilmirəm.

Ay eloğlu, ay el qızı, məni çağırın
Məndən sonra gələnlərin
oğlan toyuna,
Həsrətiyəm unutduğum ürkək cığırın,
Tamarzıyam bircə ovuc bulaq suyuna.

O dağlarda, dərələrdə özümü yorum,
Saçlarımın rəngi kimi gün dəyişibdir.
Lökün köhnə məktəbinə tezcə baş
vurum,
Görüm mənim skamyamda kim əylə-
şibdir?

Dağa, düzə yolu düşdü,
şimşək çaxmadı,
Atasını yandırdılar haqqın, inamın,
Yüz canavar hücum etdi,
bir şey çıxmadı,
Bəs necoldu sürüləri Rəhim çobanın?

Bu möhnətə lal qayalar
tutulub, dolub,
Ər igidlər, sus, sonalar saya salmayıb.
Əl tərpənib, kənd yürüyüb şəhərli
olub,
Qonaq atı tutmağa da uşaq qalmayıb.

Məzarlığı böyüdübdü hər payız,
hər yaz,
Tüstüləri sozalbdır uşaqlığımın,
O günlərin... dərələrə süləyən haray,
Səsi-küyü azalıbdır uşaqlığımın.
Sozalsa da, azalsa da ana yurdumdur,
Alnıaçıq dayanmışam alın tərimlə!
Bərkə düşsəm, öz süvari könül or-
dumdur
Öz Səhərim, öz Xəzərim,
öz Zəfərimlə!

...Yolum düşməz o yanlara...
küsdün, incidin,
Çeşmələrin gileyləndi, daşların dindi.
Gözlərimdə gen dünyanın
uzaq küncüyüdün,
Gen dünyanın mərkəzinə
dönmüsən indi.

### "QIZIMLA ATA-BABA OCAĞINDA"DƏFTƏRİNDƏN

#### Babalar

Doğulduğum yer -
Zəngəzurun Maralzəmi dərəsi.
İlkin adım -
Soltan yüzbaşının nəvəsi.
Babamdan
atama, anama qalan
iki güvən xalı olub,
bir də Zinyət nənəmin cəhrəsi.
Bir duz-çörəyi qalıb dillərdə,
bir də insan məhəbbəti - ellərdə!
Deyirlər ki,
o, yüzbaşı ola-ola
zəhmətsevər, insansevər adam olub.
Kəndimizə qonaq gələn
kasıbları
duz-çörəklə qarşılayan
elə mənim babam olub.

Bir gün bir el
Haray-bəşir qoparıb:
- Ay aman!!
Soltan yüzbaşını
Bahar çayı aparıb!!
Bir insan faciəsi
bir mahalın ürəyini
yeyib... yeyib...
Sen bir eldə sevgiyə bax -
candan artıq istədiyi
zümzüməli Bahara da,
min nəğməli bahara da
ağ deyib:
"Bahar, neylədin, Bahar?!"



Sen nə söylədin, bahar?
Soltansız bir mahala
De, nəyə gəldin, bahar?!

Mənim atam - sənin baban
bağban olub,
suçu olub,
yazı-pozu bilməyib.
Mənim atam - sənin baban
Göz yaşını ürəyinə axıdıbdır:
düşməninin önündə o,
dostlarının yanında o
gözlərini silməyib.
Sakit, ötkəm aləmiylə
öz eşqini, arzusunu
neçə dostun ürəyinə
əbədilik salıbdır,
Bağban atam,
suçu atam -
sənin baban
erkən köçüb bu dünyadan...
Onun adı
bir mahalda qalıbdır.

#### Maralzəmi

Bu kənd - mənim doğma kəndim
Maralzəmi,
Bu kənd - mənim ilkin misram,
ilkin bəndim,
Maralzəmi!
Kiçiklikdə ilk yaşımı
xatırladır,
dalda qalan illərimin
ən balaca qardaşını

Məğrurluqda, təmizlikdə
Ələngəzin qardaşıdır,
Xəllərgədə duru, qaynar
Çeşmələrin sirdaşıdır.
Bu cığırlar,
bu dərələr,
bu qayalar,
sehrlidir hələ mənə,
Uşaqlıqdan vurulmuşam
Zəngəzurda saz tutana,
söz deyənə.

Bu yollarla kürəyimdə
qışa odun daşımışam,
Hələ odun yanmamışkən
mənim özüm
bu yollarda alışmışam,
Bu daşlarla çırpışmışam mən
ürəyimin ağrısını,
Hələ qayğı duymamışkən
İstəmişəm özüm çəkim
evimizin qayğısını...

Bağçamıza yorğan sanıb,
vurulmuşam qalın qara,
Bu binanı
sənin baban təkcə tikib
qırx bir-qırx beş davasından
üç il sonra.
Su verəni, daş yonanı,
palçığını yoğuranı
özü olub,
nərəsini, pərdəsini rəndələyib
doğrayanı
özü olub.
Fəhləsi də, ustası da
özü olub,
dülgəri də, bənnası da
özü olub.

Bu pəncərə - qapıların hər naxışı -
sənin baban,
evimizin gündoğana öz baxışı -
sənin baban.
Qapımızda gülkarlığın gül nəfəsi -
sənin baban,
yeddi övlad, neçə nəvə dünyasının
coşqun səsi -
sənin baban,
bu bağçanın, bu ocağın mühəndisi -
sənin baban!..

Soruşursan:
- Axı, nənəm
niyə gec-gec gəlir bizə?!
Birdəfəlik niyə köçmür
şəhərdəki evimizə?
Parketimiz tərtəmizdir,
televizor, maqnitofon...
kreslomuz, divanımız,
çarpayımız çox yumşaqdır...
Axı, orda...
- Yox, ay bala!
Dedim, sözüm yerə düşdü...

Sənin nənən
bir könüldən min könülə vurulubdur
doğma yurda!
Kənd evinin öz təndiri, öz sacı da -
ona şirin,
Bu ocağın tüstüsü də, acısı da -
ona şirin...

Sənin nənən
ondan böyük babalara, nənələrə olub
əvəz,
Sənin nənən
otuz evlik öz kəndini
Cakartaya,
Parisə də dəyişməz!..
Bu kənd - mənim doğma kəndim,
Maralzəmi,
Bu kənd - mənim ilkin misram,
ilkin bəndim,
Maralzəmi!

### "AVTOPORTRET-83"

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər
nəğməyə dönəcəyəm.
Bir yaddaş istəyərəm-
Bacara bilsə əgər-
Ömrünün qarasını,
ağını, yarasını,
çətən-çətən təzadlı
saatları, günləri
vura, çıxa, cəmləyə...
Yoxsa bütün həyatım,
ömrüm, müqəddəratım,
sığışar beş cümləyə.

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər nəğməyə dönəcəyəm.
Nekroloq istəmirəm,
Urvatlı misralarım,
Oxunan nəğməm varsa,
İlk şeirimi çap edən
o qəzetdə yazılsın.
Heç bilmirəm nə deyim,
Heç bilmirəm, doğrusu,
qəbrim harda qazılsın?

Bakı tünlükdür yaman,
Mənim boyum ucadır.
Zəngəzurda yer boldur-
Kəndimiz balacadır,
Qəbristanı yol üstə...
Mənim kimi oğullar
dönmədi doğma kəndə.
Ürəyim qana dönür
Hərdən ora gedəndə...
Bu gün doğma kəndimdə
babamın nəfəsi var,
Sabah kiçik kəndimin
böyük qəbristanının
yoldan ötən atların
dırnaqları zərbindən
məhv olmaq təhlükəsi var...

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər nəğməyə dönəcəyəm.

Tək-tənha adamlarla,
böyük izdihamlarla,
təzə-tər səhərlərlə,
gəzdiyim şəhərlərlə,
oxuduğum kitablar,
gördüyüm heykəllərlə,
önündə baş əydiyim
pirlərlə məbədlərlə
tanıdım bu həyatı.

Ömrüm-üççə misralı
bir yarımçıq bayatı!
Bu misralar doğulub
Səyyah ayaqlarımın,
sonsuz soraqlarımın,
leysan yağışlarımın,
heyrət baxışlarımın
nidası, zərbəsiylə,
Axırıncı misrası
yazılmayıbdır hələ.

...İndi burdan baxıram
Yaşadığım günlərin,
yazdığım sətirlərin
qarasına, ağına,
Bir qədəh qaldırıram
bayatımın sonuncu misrası yazılacaq
o günün sağlığına!
Deyirəm: gec gəl, ey gün!
Həsrət əzəldən elə
Təbiətin şairə ən qiymətli bəxşidir,
Uğursuz uğurlardan
yenə həsrət yaxşıdır.
***1983, Praqa.***

***Hidayət***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4942**
**Sifariş: 756**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova